QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 193 (6157) 30 oktyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Azərbaycan və Türkiyə bundan sonra da bir-birinin yanında olacaq!

*Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib*



Bax 2

### Mehriban Əliyeva: Türkiyənin və Türkiyə xalqının hər bir azərbaycanlının qəlbində xüsusi yeri vardır



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "İnstagram" səhifəsində Türkiyə xalqını 29 Oktyabr - Respublika Günü münasibətilə paylaşım edilib. SİA-nın məlumatına görə, paylaşımda deyilir: "Qardaş Türkiyə xalqını 29 Oktyabr - Respublika Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Türkiyənin və Türkiyə xalqının hər bir azərbaycanlının qəlbində...

Bax 2

### Hikmət Hacıyev: "Azərbaycan Ordusu düşmənin cavabını verir və onları iti qovan kimi qovuruq"



Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığı ilə biz Bərdə və Tərtər şəhərlərinə bu səfəri təşkil etdik. AZƏRTAC xəbər verir ki, bu barədə...

Bax 2

### Vladimir Putin: "Bu ərazilər Azərbaycanın əzəli torpaqlarıdır"



Dağlıq Qarabağ özü və Azərbaycanın Dağlıq Qarabağ ətrafındakı yeddi rayonu Ermənistanın nəzarəti altına keçib. Bu ərazilər Azərbaycanın əzəli torpaqlarıdır. AZƏRTAC xəbər verir ki, RF Prezidenti Vladimir Putin bu sözləri "VTB Kapitala" "Rossiya zovyot!" İnvestisiya Forumunun iclasında söyləyib. Rusiya...

Bax 2

### Əli Əhmədov: "Terrorla Azərbaycan xalqını haqq yolundan döndərmək mümkün deyil"



"Erməni terrorçularının vandalizmi sərhəd bilmir, getdikcə daha eybəcər şəkil almaqda davam edir. Gəncənin ardınca istifadəsi qadağan edilmiş xüsusi dağıdıcı gücə malik kassetli bombalarla Bərdənin hücuma məruz qalması, 21 nəfərin həlak olması, 70-ə qədər insanın ağır yaralanması bunun bariz ifadəsidir. Sentyabrın 27-dən bu günə qədər erməni terrorçular və vandalların qətlə yetirdiyi mülki insanların...

Bax 4

### Anar Eyvazov: "Azərbaycan Ordusunun qarşısında bir hədəf var: işğal altında qalan bütün torpaqlarımızın azad olunması"



Humanitar atəşkəs rejimini kobudcasına pozaraq şəhər və rayonlarımızda dinc əhalini və mülki infrastrukturu atəşə tutan düşmən bölmələrini Azərbaycan Ordusu cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində gedən döyüşlərdə...

Bax 4

### "Amnesty International" Ermənistanın Bərdəyə istifadəsi qadağan olunmuş kasetli raketlərlə zərbələr endirdiyini təsdiqlədi



Bax 4

### Dünya mediyası ermənilərin Bərdədə törətdikləri qətliamdan yazır



Bax 8

### Konstantin Ter-Nakalyan: "Ermənilər boş ümidlərə qapılmasın"



Bax 10

# Azərbaycan və Türkiyə bundan sonra da bir-birinin yanında olacaq!

*Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib. Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğana və Türkiyə xalqına Cümhuriyyət Günü münasibətilə təbriklərini çatdırıb, tərəqqi və xoşbəxtlik arzularını ifadə edib.***

Prezident İlham Əliyev Türkiyə Prezidentinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizə daim göstərdiyi siyasi dəstəyi bir daha yüksək qiymətləndirərək, dost və qardaş Azərbaycan və Türkiyə xalqlarının bundan sonra da bir-birinin yanında olacağına əminliyini bildirib.

Prezident Rəcəb Tayyib Ərdoğan göstərilən diqqətə və təbrikə görə dövlətimizin başçısına minnətdarlığını bildirərək qardaş Azərbaycan xalqına salamlarını və ən xoş arzularını çatdırıb, dost və qardaş xalqlarımızın hər zaman bir-birinin yanında olacağını vurğulayıb. Telefon söhbəti zamanı ikitərəfli münasibətlər və regional məsələlər müzakirə edilib.



## Mehriban Əliyeva: Türkiyənin və Türkiyə xalqının hər bir azərbaycanlının qəlbində xüsusi yeri vardır



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "İnstagram" səhifəsində Türkiyə xalqını 29 Oktyabr - Respublika Günü münasibətilə paylaşım edilib. SİA-nın məlumatına görə, paylaşımda deyilir: "Qardaş Türkiyə xalqını 29 Oktyabr - Respublika Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Türkiyənin və Türkiyə xalqının hər bir azərbaycanlının qəlbində xüsusi yeri vardır. Bizi etibarlı və möhkəm dostluq, qardaşlıq telləri bağlayır. Bizim uğurlarımıza və qələbələrimizə sizin necə sevindiyinizin şahidiyik. Bizim dərdimizə necə şərik olduğunuzu görürük. Bütün bunlar Azərbaycan ilə Türkiyə Respublika arasında birliyin, dostluğun, səmimiyyətin möhkəmliyini göstərir. Qoy xalqlarımızın dostluğu və qardaşlığı əbədi və sarsılmaz olsun! Bütün Türkiyə xalqına möhkəm cansağlığı, xoşbəxtlik və sülh arzu edirəm. Uca Tanrı xalqlarımızı qorusun!"

## Vladimir Putin: "Bu ərazilər Azərbaycanın əzəli torpaqlarıdır"

Dağlıq Qarabağ özü və Azərbaycanın Dağlıq Qarabağ ətrafındakı yeddi rayonu Ermənistanın nəzarəti altına keçib. Bu ərazilər Azərbaycanın əzəli torpaqlarıdır. AZƏRTAC xəbər verir ki, RF Prezidenti Vladimir Putin bu sözləri "VTB Kapitala" "Rossiya zovyot!" İnvestisiya Forumunun iclasında söyləyib.



Rusiya Prezidenti deyib: "Azərbaycan nə deyir? O deyir ki, həmin yeddi rayonun istər etnik münaqişəyə, istərsə də Ermənistana heç bir aidiyyəti yoxdur. Bunlar əzəli Azərbaycan əraziləridir və Azərbaycan deyir: bizim bu əraziləri özümüzə qaytarmaq və Dağlıq Qarabağla münasibətləri aydınlaşdırmaq hüququmuz var. Başa düşürsünüzmü, hər kəs özünü haqlı hesab edir və burada sadə həll yoxdur, çünki düyün çox möhkəm bağlanıb. Biz lap əvvəldən nə demək lazım olduğunu əsas götürmüşük, - bizim mövqeyimiz isə tamamilə açıqdır, - Azərbaycana beş üstə gəl iki rayonun verilməsinin mümkünlüyü və Dağlıq Qarabağ zonasında müəyyən rejimin təmin edilməsi, Ermənistanla qarşılıqlı münasibətlər və sair barədə danışmaq lazımdır".

Prezident V.Putin Dağlıq Qarabağ münaqişəsinin uzunmüddətli nizamlanması barədə sualın cavabında deyib: "Hər iki tərəfi - həm bizim həmişə hörmətlə yanaşdığımız Azərbaycan xalqını, həm də erməni xalqını və Ermənistan dövlətini qane edən, onların maraqları nəzərə alınan mənafelər balansını tapmaq lazımdır ki, insanlar özlərini təhlükəsiz hiss etsinlər, lakin eyni zamanda həm Azərbaycanın, həm də Ermənistanın, elə insanların kifayət qədər sadə yaşadığı Dağlıq Qarabağın özünün də səmərəli inkişafının əsasını təşkil edən bütün infrastruktur imkanları bərpa olunsun və inkişaf etdirilsin. Bu halda bizim bugünkü diskussiyasının iştirakçılarının çoxu həmin ərazilərin inkişafında iştirak etmək, orada sərmayə qoymaq imkanı əldə edərdi - hər iki ölkənin insanları çox istedadlı, çox qabiliyyətlidir. Artıq 30 ilə yaxın davam edən bu münaqişə hər iki tərəfin səmərəli inkişafına imkan vermir".

## Hikmət Hacıyev: "Azərbaycan Ordusu düşmənin cavabını verir və onları iti qovan kimi qovuruq"

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığı ilə biz Bərdə və Tərtər şəhərlərinə bu səfəri təşkil etdik. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Bərdədə təşkil edilən brifinqdə bildirib.



Prezidentin köməkçisi səfərdə iştirak edən Azərbaycanda akkreditasiya olunmuş diplomatik nümayəndələrə və hərbi attaşelərə təşəkkür edib. O deyib ki, dünən və ondan əvvəlki gün Ermənistan Silahlı Qüvvələri "Smerç" raketləri və kasetli bombalardan istifadə edərək Azərbaycanın Bərdə şəhərini intensiv şəkildə atəşə tutub. Bunun nəticəsində çoxlu sayda insan həlak olub və yaralanıb. Bərdə şəhəri cəbhəyanı zonadan 60-70 kilometr kənarda yerləşir. Ermənistanın Bərdə şəhərini qadağan olunmuş silahlarla atəşə tutmasının yalnız bir məqsədi var idi: mülki insanların qətlinə səbəb olmaq və onlar arasında panika yaratmaq. Ancaq onlar bu məqsədlərinə heç bir halda nail ola bilməyəcəklər. Bərdə sakinlərinin əzmini diplomatik korpusun nümayəndələri və hərbi attaşelər də gördülər. Ermənistan hərbi-siyasi rəhbərliyi o qədər azğınlaşıb ki, diplomatik nümayəndəliklərin təmsilçiləri Tərtərdə olanda da atəş açırdılar.

Prezidentin köməkçisi qeyd edib ki, bu, ermənilərin Xocalı soyqırımından başlayan və bu gün də davam edən müharibə cinayətlərinin, insanlıq əleyhinə cinayət əməllərinin tərkib hissəsidir. Onlarda hər hansı məsuliyyət hissi qalmayıb. Gördüyümüz kimi, onların hədəfi mülki insanlardır. "Tərtər şəhərində Ermənistan silahlı qüvvələrinin gün ərzində atdığı mərmilərin, mülki insanlara, yaşayış binalarına dəymiş zərərin bu gün bir daha şahidi olduq", - deyə Hikmət Hacıyev qeyd edib.

Hikmət Hacıyev bildirib ki, Azərbaycanın özünümüdafiə hüququ var. BMT-nin Nizamnaməsinin 54-cü maddəsinə əsasən, Azərbaycan təhlükəsizliyini təmin etmək üçün legitim hərbi hədəflərə qarşı cavab tədbirləri görmək hüququnu özündə saxlayır. Amma Azərbaycanın məqsədi budur, biz mülki şəxslərlə döyüş aparmırıq, aparmayacağıq da.

"Biz döyüş meydanında döyüş aparırıq. Ermənistanın mülki şəxslərinə qarşı döyüş aparmırıq, ancaq legitim hərbi hədəflərə qarşı. Bu, bizim mədəniyyətimiz, xalqımızın mentalitetidir. Ermənistanla Azərbaycan arasındakı fərq bundan ibarətdir", - deyə Prezidentin köməkçisi qeyd edib.

Hikmət Hacıyev diqqətə çatdırıb ki, Xarici İşlər naziri tərəfindən artıq Minsk qrupunun həmsədr ölkələrinə və digər beynəlxalq təşkilatlara ermənilərin Bərdədə törətdiyi terror barədə məlumat verilib: "Bu, gördüyünüz kimi Vaşinqtonda keçirilmiş görüşdən sonraya təsadüf edib və qarşıdan Cenevrə görüşləri gəlir. Ondan əvvəl Ermənistan tərəfindən növbəti bir xəyanətkar, alçaq və şərəfsiz hücum həyata keçirildi. Gördüyünüz kimi, Bərdə şəhərinin mərkəzində hər hansı bir hərbi məntəqə, hərbi hədəf yoxdur. Onların məqsədi, gücü ancaq mülki insanlara çatır və bu məqsədlə kasetli bombalardan istifadə edirlər. Məqsəd də birdir, insanlar arasında daha çox qırğın törətmək. Bu, Azərbaycan xalqını qorxutmur. Xalqımız daha da möhkəmdir. Ali Baş Komandanın əmrinə əsasən, biz də burdayıq, xalqımızla bir yerdəyik. Bərdə şəhərinin əzmini görürsünüz, digər şəhərlərimizdə - Tərtər, Gəncə, Mingəçevirdə olduğu kimi. Bu, xalqımızı daha da möhkəmləndirir".

Prezidentin köməkçisi deyib ki, əgər onlar bununla Azərbaycan xalqının əzmini sındıra biləcəklərini düşünürlərsə, yanılırlar. "Biz bundan sonra Tərtərə də gedəcəyik, atırlar-atsınlar. Amma Azərbaycan xalqının əzmini heç zaman sındıra bilməyəcəklər. Torpaqlarımız işğaldan azad olunacaq. Bir sözlə, əgər kişidirlərsə, döyüş meydanında ortaya çıxsınlar. Döyüş meydanından alçaqcasına, şərəfsizcəsinə qaçırlar, gücləri ancaq raket atmaqla qadın və uşaqlara çatır. Onun da cavabını Azərbaycan Silahlı Qüvvələri döyüş meydanında layiqincə verir. Ali Baş Komandanımız dediyi kimi, onları iti qovan kimi qovuruq və bundan sonra da qovacağıq. Onlar döyüş meydanında bir-bir cəzalandırılır. Azərbaycan Silahlı Qüvvələri döyüş meydanında Xocalı soyqırımını törədənlərin çoxunun cavabını verir. Artıq mətbuatda da məlumat var ki, qondarma rejimin müdafiə naziri olan şəxs də cəhənnəmə yola salınıb. Digərləri də öz paylarını alacaqlar. Ali Baş Komandan demişkən, iti qovan kimi hamısını qovacağıq", - deyə Hikmət Hacıyev bildirib.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Kuba Respublikasında (Havana şəhərində) Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu təsdiqləyib. Trend-in məlumatına görə, Qanunla Azərbaycan Respublikasının Kuba Respublikasında (Havana şəhərində) Səfirliyi təsis edilir.

***

Prezident İlham Əliyev 2020/2021-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, 2020/2021-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş 102 tələbəyə Prezident təqaüdü verilir. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə Qanunu təsdiqləyib.

# Azərbaycanın işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmə təşkil edilir

***Prezident İlham Əliyev Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında Fərman imzalayıb. AZƏRTAC xəbər verir ki, Fərmana əsasən, Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində, Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq, hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar yaradılacaq.***



Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə müvafiq ərazilərin müvəqqəti komendantlarını təyin etmək və müvəqqəti komendantlıqların fəaliyyətini təşkil etmək tapşırılıb. Müvəqqəti komendantlıqlar öz fəaliyyətini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Dövlət Sərhəd Xidməti ilə əlaqələndirəcəklər. Fərmana əsasən, müvəqqəti komendantlıqların nəzdində aşağıdakı dövlət orqanlarının (qurumlarının) nümayəndələrinin daxil olduğu əməliyyat qərargahları yaradılacaq:

Dövlət Təhlükəsizliyi Xidməti;

Fövqəladə Hallar Nazirliyi;

İqtisadiyyat Nazirliyi;

Kənd Təsərrüfatı Nazirliyi;

Ekologiya və Təbii Sərvətlər Nazirliyi;

Maliyyə Nazirliyi;

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi;

Mədəniyyət Nazirliyi;

Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik;

Müvafiq yerli icra hakimiyyəti orqanları.

Müvəqqəti komendantlıqlara fəaliyyət göstərdikləri ərazilərdə aşağıdakı vəzifələrin yerinə yetirilməsini təşkil etmək tapşırılıb:

Mühüm əhəmiyyətli obyektlərin, o cümlədən nəqliyyat və telekommunikasiya infrastrukturu obyektlərinin, enerji və su təchizatı sistemlərinin, su anbarlarının, insanlar və ətraf mühit üçün yüksək təhlükə mənbəyi olan xüsusi obyektlərin mühafizəsi;

İctimai qaydanın və ictimai təhlükəsizliyin qorunması;

Aşkar edilən hərbi texnikanın, silahın, döyüş sursatının, zəhərləyici və partlayıcı maddələrin toplanması, inventarlaşdırılması və mühafizəsi;

Kənd təsərrüfatı texnikası istisna olmaqla, digər mülki təyinatlı texnikanın, nəqliyyat vasitələrinin inventarlaşdırılması, saxlanılması və mühafizəsi;

Aşkar edilmiş sənədlərin uçotunun aparılması və sonrakı təhlil üçün mühafizəsi;

Hərbi vəziyyət rejiminin təmin olunması üçün "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş digər tədbirlərin həyata keçirilməsi.

Müvəqqəti komendantlıqlar aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə aşağıdakı vəzifələri yerinə yetirməlidir:

Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik ilə birlikdə minalardan təmizləmə və zərərsizləşdirmə işlərinin aparılması üçün zəruri tədbirlər görülməsi;

Dövlət Təhlükəsizliyi Xidməti ilə birlikdə terrorçuluq, casusluq, təxribat və Azərbaycan Respublikasına qarşı yönəldilmiş digər qanunazidd fəaliyyətin qarşısının alınması;

Fövqəladə Hallar Nazirliyi ilə birlikdə energetika qurğularının, o cümlədən hidrotexniki qurğuların vəziyyətinin ilkin qiymətləndirilməsi, yanğınların, təbii fəlakətlərin və texnogen qəzaların nəticələrinin aradan qaldırılması və zərurət yarandıqda, müvafiq mülki müdafiə tədbirlərinin yerinə yetirilməsi;

İqtisadiyyat Nazirliyi ilə birlikdə infrastruktur obyektlərinin, torpaq sahələrinin və digər daşınmaz əmlak obyektlərinin ilkin inventarlaşdırılması və mühafizəsi;

Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə kənd təsərrüfatı üçün yararlı torpaqların müəyyənləşdirilməsi, kənd təsərrüfatı texnikası və istehsal vasitələrinin, kənd təsərrüfatı heyvanlarının uçotunun aparılması, saxlanılması və mühafizəsi, fitosanitar və epizootik vəziyyətin ilkin qiymətləndirilməsi;

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birlikdə zəruri rabitə şəbəkəsinin qurulması;

Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə ətraf mühitin qorunması, topoqrafiya və xəritəçəkmə işlərinin aparılması, təbii sərvətlərdən səmərəli istifadə məqsədilə onların ilkin qiymətləndirilməsi və mühafizəsi;

Mədəniyyət Nazirliyi ilə birlikdə tarix və mədəniyyət obyektlərinin (abidələrinin və müəssisələrinin) ilkin inventarlaşdırılması və mühafizəsi.

Fərmana əsasən müvəqqəti komendantlıqların fəaliyyətinə ümumi nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirəcək.

## Norveçin "Klassekampen" qəzeti Ermənistanın hərbi təxribatlarından yazır




Norveçin "Klassekampen" qəzetində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, "Bir münaqişənin tarixi" adlı məqalədə Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğu qeyd edilir. Münaqişənin fəsadları barədə məlumatın verildiyi məqalədə azərbaycanlıların qətlə yetirildiyi və ya işğal olunmuş ərazilərdən qovulduğu diqqətə çatdırılır. Bildirilir ki, təkcə Xocalı şəhərində 1992-ci il fevralın 26-da erməni millətçiləri bir gecədə 613 nəfəri vəhşicəsinə qətlə yetiriblər.

Məqalədə vurğulanır ki, beynəlxalq hüquq Dağlıq Qarabağ münaqişəsi ilə bağlı birmənalı mövqeyə malikdir. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilən 822, 853, 874 və 884 saylı dörd qətnaməsində deyilir ki, Ermənistanın bütün işğalçı qüvvələri Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini dərhal, tam və qeyd-şərtsiz tərk etməlidir. Məqalədə bu il sentyabr ayının sonlarında Azərbaycan qoşunlarının əks-hücuma keçməyə məcbur olduğu qeyd edilir. Bildirilir ki, erməni tərəfi münaqişəyə digər ölkələri cəlb etməyə çalışır. Bu məqsədlə Ermənistan ballistik raketlərdən istifadə edərək, münaqişədən kənar zonada yerləşən dinc şəhərləri atəşə tutur.

## OPEC Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir

***Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi Məhəmməd Sanusi Barkindo Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanlandığı məktubda hazırda ölkəmizdə mülki şəxslərin ölümü və böyük dağıntılarla müşayiət olunan hərbi əməliyyatların davam etməsindən dərin narahatlıq keçirdiklərini bildirib. Qeyd edib ki, bu münaqişə həmçinin dünya bazarlarında enerji təchizatının təhlükəsizliyi və sabitliyi üçün böyük əhəmiyyət kəsb edən Azərbaycanın əsas neft və qaz infrastrukturunu təhlükə altına qoyub.***



Baş katib bütün tərəfləri, eyni zamanda, beynəlxalq ictimaiyyətin təşəbbüsləri və birgə səyləri nəticəsində hərbi əməliyyatlara dərhal son qoyulacağına, münaqişənin daha da genişlənməsinin qarşısı alınacağına ümidvar olduğunu deyib. Vurğulayıb ki, OPEC münaqişənin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə və ədalətli həllinin tərəfdarıdır.

Məktubda həmçinin vurğulanır ki, Azərbaycan OPEC və qeyri-OPEC ölkələrinin son 4 ildə birgə təşviq etdiyi tarixi sazişlərin sadiq tərəfdarı olduğunu sübut edib. "Əməkdaşlığımızın ilk günlərindən etibarən Azərbaycanın 2016-cı il dekabrın 10-da imzalanmış "Əməkdaşlıq Bəyannaməsi"nə qoşulmasından sonra ölkənizin fəal iştirakını və öz öhdəliklərinə davamlı sadiqliyini, eləcə də onun neft bazarının daha çox ehtiyac duyduğu sabitliyin bərpa olunmasına göstərdiyi fəal dəstəyi yüksək qiymətləndiririk", - deyə OPEC-in Baş katibi qeyd edib.

## Əli Əhmədov: "Terrorla Azərbaycan xalqını haqq yolundan döndərmək mümkün deyil"



"Erməni terrorçularının vandalizmi sərhəd bilmir, getdikcə daha eybəcər şəkil almaqda davam edir. Gəncənin ardınca istifadəsi qadağan edilmiş xüsusi dağıdıcı gücə malik kassetli bombalarla Bərdənin hücuma məruz qalması, 21 nəfərin həlak olması, 70-ə qədər insanın ağır yaralanması bunun bariz ifadəsidir. Sentyabrın 27-dən bu günə qədər erməni terrorçular və vandalların qətlə yetirdiyi mülki insanların sayı 100-ə yaxınlaşır. Bugünki erməni vandalları ata-babalarından miras qalmış terrorçuluğu, uşaq və qadın qatili olmaq ənənəsini daha qəddarcasına həyata keçirirlər". SİA-nın verdiyi məlumata görə, bu sətirlər Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədovun erməni silahlı qüvvələrinin Bərdə şəhərində törətdiyi qanlı terror aksiyası və bu terrorizmə bəzi beynəlxalq təşkilatların və dövlətlərin susqun münasibətindən bəhs edən məqaləsində yer almışdır.

"Artıq heç kimə sirr deyil ki, terror Ermənistanın dövlət siyasəti səviyyəsinə yüksəlmişdir. Gəncəyə və Bərdəyə atılan raketlərin istifadəsinə dair sərəncam yalnız ən yüksək səviyyədə verilə bilər. Ermənistanın terrorçu dövlət olduğunu sübuta yetirmək üçün bundan əlavə hər hansı dəlilə ehtiyac yoxdur."-deyə, qeyd edən Əli Əhmədovun sözlərinə görə erməni terrorçularının vəhşilikləri fonunda münaqişə zonasında dəyərlər savaşının getdiyi əyani şəkildə özünü göstərməkdədir. Doğma torpaqlarını işğaldan azad edən və özünün şərəfli missiyasını döyüş meydanında mərdi-mərdanə yerinə yetirən Azərbaycan əsgərinin qarşısında açıq savaşdan qaçaraq, mülki əhalini raket atəşinə tutan, qadınların və uşaqların qatilinə çevrilən rəzil erməni əsgərinin dayandığını müşahidə etməmək mümkün deyil. Özünü mədəni dövlət kimi təqdim etməyə çalışan Ermənistanın hərbiçilərinin və onlara döyüş əmrini verənlərin dinc əhalini hədəfə alması, onların sahib olduğu həqiqi dəyərlərin mahiyyəti haqqında aydın təsəvvür yaradır. Namərdlik, qorxaqlıq, kəmfürsətlilik, satqınlıq erməni terrorçularına xas olan dəyərlərin heç də tam olmayan siyahısıdır. Bir daha əmin olursan ki, dahi rus şairi A.S.Puşkin erməniləri dillər əzbəri olmuş dəyərləndirməsində nə qədər haqlı imiş.

Erməni vandalizminə və terrorizminə bəzi beynəlxalq təşkilatların və dövlətlərin susqun münasibətinin olduğunu bildirən Əli Əhmədov: "Azərbaycanın dinc əhalisi arasında erməni terrorunun qurbanlarının sayının artmasına baxmayaraq, bir sıra dövlətlərin və beynəlxalq təşkilatların qəribə şəkildə susması da diqqətdən yayınmır. Terrorizmə qarşı mübarizəni az qala öz siyasi platformasının əsas qayəsi hesab edən bir sıra dövlət başçıları və liderləri də nədənsə erməni terroru qarşısında susmağa üstülük verir. Başqa vaxtlar ən adi hadisələrdə "böyük" pozuntular görməyə çalışan xadimlərin və təşkilatların bu cür davranışı erməni terrorizminin gizli şəkildə həvəsləndirilməsindən başqa bir şey deyildir.

Gəncədə və Bərdədə törədilən vəhşi terror aktları erməni vandalizminin iyrənc ifadəsi olmaqla yanaşı, həm də Ermənistan rəhbərliyinin eybəcər hərbi taktikası kimi tətbiq edilir. Döyüş meydanında ağır məğlubiyyətə düçar olan Ermənistanın hərbi siyasi rəhbərliyinin xilas yolunu öz tarixi ənənələrinə uyğun olaraq terrorda görməsi bəlkə də təəccüblü deyil. Erməni siyasətçilərindən ötrü terror məqsədlərinə çatmaq naminə istifadə etdikləri ən "sevimli" mübarizə üsuludur. İndi bu iyrənc vasitədən istifadə etməklə Azərbaycan xalqını vahiməyə salmağa, haqq işi uğrunda apardığı mübarizəsindən döndərməyə çalışırlar. Lakin erməni vandallarının törətdiyi terrorlar nə qədər iyrənc, nə qədər qan donduran olsa da, xalqımızı haqq işindən döndərə bilməz. Əksinə, namərdlərin dinc əhaliyə xain hücumları xalqımızı dövlətin, Ordunun və Ali Baş Komandanın ətrafında daha sıx birləşdirir, mübarizə əzmini daha da artırır. Terrorla Azərbaycan xalqını haqq yolundan döndərmək mümkün deyil."-deyə, qeyd etmişdir.

## Xarici diplomatlar Bərdədə erməni terrorunun izləri ilə tanış olublar



Azərbaycandakı diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri oktyabrın 29-da Bərdəyə gəliblər. AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, diplomatları və hərbi attaşeləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov, Baş prokuror Kamran Əliyev və başqaları müşayiət edirlər. Səfərin məqsədi diplomatları və hərbi attaşeləri oktyabrın 27 və 28-də cəbhə zonasından kənarda yerləşən, 100 min əhalisi olan Bərdədə Ermənistan silahlı qüvvələrinin raket hücumlarının səbəb olduğu cinayət izləri ilə tanış etməkdir.

## "Amnesty International" Ermənistanın Bərdəyə istifadəsi qadağan olunmuş kasetli raketlərlə zərbələr endirdiyini təsdiqlədi



"Amnesty International" təşkilatı Ermənistanın Azərbaycanın Bərdə şəhərinə istifadəsi qadağan olunmuş kasetli raketlərlə zərbələr endirdiyini təsdiqləyib. AZƏRTAC-ın məlumatına görə, təşkilatın bu barədə yaydığı açıqlamada deyilir ki, dünən yerli vaxtla saat 13:30-da Bərdə şəhərinə bir və ya bir neçə "Smerç" raketi atılıb və xəstəxanaya yaxın yaşayış ərazisinə düşüb. Azərbaycanın Baş Prokurorluğu bildirib ki, nəticədə ən azı 21 nəfər həlak olub, 70-dən çox insan yaralanıb. Qeyd olunur ki, "Amnesty International"ın böhrana cavab mütəxəssisləri şəkillərə əsasən şəhərə erməni qüvvələri tərəfindən atılan raket qalıqlarının Rusiya istehsalı olan 9M55 "Smerç" raketlərindən 9N235 sursat parçalarının olduğunu təsdiqləyiblər. Vurğulanır ki, kasetli sursatlardan mülki ərazilərə qarşı istifadə etmək amansızlıqdır və məsuliyyətsizlikdir. Bu, çoxsaylı insan itkisinə, yaralanmaya səbəb olur. Kasetli döyüş sursatlarının hər cür şəraitdə istifadəsi beynəlxalq humanitar hüquqa əsasən qadağandır.

## YAP Bərdə terroru barədə dünya ictimaiyyətini e-mail məlumatlandırma aksiyasını həyata keçirir

Yeni Azərbaycan Partiyası işğalçı Ermənistanın silahlı qüvvələrinin beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə Konvensiyasını və onun Əlavə Protokollarını, habelə xarici işlər nazirlərinin Vaşinqtonda keçirilmiş görüşünün yekunu olaraq, razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq, Azərbaycanın yaşayış məntəqələrini və mülki vətəndaşlarını raket atəşinə tutması barədə e-mail məlumatlandırma aksiyası keçirir.

SİA-nın verdiyi məlumata görə, aksiya çərçivəsində partiyanın çoxsaylı könüllüləri Ermənistanın Bərdə şəhərinə terror hücumları barədə 55 beynəlxalq təşkilata, 75 beynəlxalq KİV-ə, 197 parlamentə, onların sədrlərinə və deputatlarına, 97 dövlət və hökumət başçısına, 187 siyasi partiyaya, 165 ölkənin xarici işlər nazirliklərinə, ümumilikdə 800-ə yaxın ünvana 210 mindən artıq e-mail göndərib.

Yeni Azərbaycan Partiyası bununla yanaşı, "facebook", "twitter", "instagram", "telegram" üzərindən Bərdə terroru barədə məlumatlandırma işlərini də həyata keçirib. Partiyanın gəncləri Bərdə terroru ilə bağlı 3 dildə posterlər, kollajlar, kiçik həcmli videoçarxlar hazırlayaq #Bardacity, #StopArmenianAggression, #KarabakhisAzerbaijan, #DontBelieveArmenia, #ArmeniaKillsCivilians haştaqları üzərindən yayıblar. Son iki gün ərzində Bərdə terroru barədə təxminən 200 mindən artıq tvit, facebook statusu yazıblar, instagram və telegram paylaşımı ediblər.

Göndərilmiş e-maillərdə, yazılmış statuslarda, paylaşılmış poster və videoçarxlarda Ermənistanın Bərdə terrorunun nəticələri barədə məlumat verilib və dünya birliyi Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi terror siyasətinə, təcavüzkarlıq siyasətinə susmamağa çağırılıb. 40-dan artıq insanın öldüyü, 100-dək insanın yaralandığı Gəncə terrorundan sonra Bərdədə 30-dək insanın qətlə yetirilməsi, 90-dək insanın yaralandığı növbəti terror aktının həyata keçirilməsi Ermənistanın Azərbaycan vətəndaşlarına qarşı soyqırımı həyata keçirdiyini sübut edir. Dövlət və hökumət başçılarına, dünya parlamentarilərinə, nüfuzlu KİV-lərə, siyasi partiyalara, XİN-lərə ünvanlandırılan müraciətlərdə müasir dünyanın Holokost, Ruanda, Serebrenitsa, Xocalı soyqırımılarından sonra daha bir genosidi yaşamasına imkan verməməyə və bu səbəbdən də, Ermənistan kimi terror dövlətinə qarşı effektiv tədbirlər görməyə çağırışlar səsləndirilmişdir.

## Ceyhun Bayramov: "Sülhməramlı missiya üçün Bakının razılığı olmalıdır"



Dağlıq Qarabağda mümkün sülhməramlı missiya üçün Bakının razılığı olmalıdır. SİA-nın məlumatına görə, bunu Xarici İşlər naziri Ceyhun Bayramov deyib. O bildirib ki, beynəlxalq sülhməramlılar mövzusu yeni deyil: "Bu, münaqişənin nizamlanması prosesinin əsas elementlərindən biri, baza prinsiplərinin tərkib hissəsidir və uzun illər sülh danışıqlarının əsasında olub. Bu barədə ATƏT-in 1994-cü il Budapeşt sammitinin qərarında deyilir. Bu qərarda Yüksək səviyyəli planlaşdırma qrupuna Dağlıq Qarabağda ATƏT-in çoxmillətli sülhməramlı qüvvələrin yaradılması, strukturunun müəyyənləşdirilməsi və fəaliyyəti üzrə planın hazırlanması tapşırılır".

## Anar Eyvazov: "Azərbaycan Ordusunun qarşısında bir hədəf var: işğal altında qalan bütün torpaqlarımızın azad olunması"

***Humanitar atəşkəs rejimini kobudcasına pozaraq şəhər və rayonlarımızda dinc əhalini və mülki infrastrukturu atəşə tutan düşmən bölmələrini Azərbaycan Ordusu cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində gedən döyüşlərdə darmadağın edib. Dəqiq atəş zərbələrinə tab gətirə bilməyən düşmən itki verərək qaçmağa və geriyə çəkilməyə məcbur edilib.***

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 29-da Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib. Anar Eyvazov bildirib ki, ümumilikdə düşmənin ordu korpusunun və diviziyasının yüksək rütbəli zabitləri daxil olmaqla, xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 14 ədəd müxtəlif artilleriya qurğusu, 6 ədəd avtomobil texnikası və bir neçə dayaq məntəqəsi bölmələrimizin dəqiq atəş zərbələri ilə məhv edilib. Döyüş meydanında məhv olan bölmələrinə dəstək üçün gələn düşmənə məxsus iki "Su-25" tipli hücum təyyarəsi hərbi hava hücumundan müdafiə bölmələrimiz tərəfindən havada məhv edilib.




Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, düşmənin bir neçə istiqamətdə hücum etmək cəhdinin qarşısı qətiyyətlə alınıb. Ermənistan ordusu Bərdə, Goranboy və Tərtər rayonlarında yaşayış məntəqələrimizi və mülki infrastrukturlarımızı raket və artilleriya silahları ilə atəşə tutmaqla növbəti müharibə cinayətlərinə əl atıb.

Özbaşınalığın hökm sürdüyü Ermənistan ordusunda könüllülər və nizami bölmələrinin şəxsi heyəti arasında açıq qarşıdurmalar, tabesizlik, bir-birilərinə qarşı silah tətbiq etmə, döyüşə girməkdən imtina, əmr olmadan mövqelərdən geri çəkilmə və kütləvi fərarilik halları baş alıb gedir. Təşviş və xaos bürümüş ordusunun uğursuzluğunu gizlətmək məqsədilə feyk foto və videomaterialların, saxta məlumatların da faydasız olduğunu görən Ermənistan rəhbərliyi düşdükləri ağır vəziyyətlə barışmağa məcbur edilir.

"Beynəlxalq humanitar hüququn normalarını kobudcasına pozaraq dinc sakinləri və mülki infrastrukturu hədəfə almaqla Ermənistan silahlı qüvvələri müharibə cinayətlərini davam etdirir. Azərbaycan Ordusunun qarşısında bir hədəf var: mülki insanlara ziyan vurmadan, yalnız atəşlə legitim hərbi hədəfləri dəqiq atəşlə məhv edərək işğal altında qalan bütün torpaqlarımızın azad olunması. Qələbə bizimlədir", - deyə Anar Eyvazov vurğulayıb.

# Dünya mediyası ermənilərin Bərdədə törətdikləri qətliamdan yazır

***Türkiyə kütləvi informasiya vasitələri (KİV) Ermənistan ordusunun Azərbaycanın dinc əhalisinə qarşı həyata keçirdiyi hücumlara dair məlumatları geniş şəkildə yaymaqdadır. AZƏRTAC xəbər verir ki, Türkiyə KİV-ləri, həmçinin Azərbaycan Prezidenti İlham Əliyev gündəlik fəaliyyətinə, dövlətimizin başçısının müsahibələrində və xalqa müraciətlərində, eləcə də özünün rəsmi "Tvitter" hesabında paylaşdığı məlumatlara və fikirlərə böyük yer ayırır.***

Azərbaycan Müdafiə Nazirliyinin rəsmi məlumatlarına, eləcə də Ermənistan tərəfinin azərbaycanlı mülki əhaliyə hücumlarına geniş yer verilir. KİV-lər yazır ki, Ermənistan ordusu Azərbaycanın dinc əhalisinə qarşı qətliamlar törədir.

Bildirilir ki, təcavüzkar Ermənistanın Azərbaycanın böyük şəhərləri də daxil olmaqla, mülki yaşayış məntəqələrini atəşə tutması, dinc əhalinin hədəfə alınması düşmənin riyakarlığının və amansızlığının göstəricisidir. Mövzu ilə bağlı verilən analitik yazılarda və telekanallardakı ekspert müzakirələrində vurğulanır ki, beynəlxalq birliyin Ermənistanın müharibə cinayətlərinə səssiz qalması dünyada haqqa və ədalətə inamı heçə endirir. Hazırkı dövrdə heç kəs iddia edə bilməz ki, baş verənlərdən məlumatsızdır. Azərbaycandakı diplomatik korpusun rəhbərləri və təmsilçiləri Gəncədə və Bərdədə ballistik raket hücumlarının qanlı izlərini öz gözləri ilə görüblər.
















**Türkiyə KİV-ləri: Ermənistan ordusu Azərbaycanın dinc əhalisinə qarşı qətliamlar törədir**

### "The New-York Times" nəşrində Ermənistan silahlı qüvvələri tərəfindən Bərdənin raket atəşinə tutulması barədə məqalə dərc edilib

"The New-York Times" nəşrində erməni silahlı qüvvələrinin Azərbaycanı növbəti dəfə raket atəşinə tutması, erməni təcavüzü və Azərbaycanın işğal edilmiş ərazilərində hazırda davam edən hərbi əməliyyatlar barədə məqalə dərc edilib. Qəzetin Ermənistan tərəfindən raket atəşinə məruz qalmış bir qrup jurnalisti Azərbaycanın dinc əhalisinə qarşı hücumu təsvir edib.

AZƏRTAC xəbər verir ki, jurnalistlər Bərdə şəhərinin əsas küçəsində maşınla getdikləri zaman şəhərə erməni raketləri düşməyə başlayıb. Məqalənin müəllifi jurnalist Karlotta Qell yazır ki, birinci partlayış çox gurultulu olub. Jurnalistlər maşından tullanaraq yaxınlıqdakı divara qısılıblar.

Karlotta Qell yazır: "Azərbaycan Ermənistanla müharibə vəziyyətindədir, lakin cəbhə xətti Bərdədən 20 mil uzaqdadır. Həmin ana qədər bu rayonda sakitlik idi". Reportyor daha sonra raket zərbəsinin dəhşətli nəticələrini və yaralı dinc sakinlərin yaxınlıqdakı özəl poliklinikanın zirzəmisinə çatdırılmasını təsvir edir.

1988-ci ildə başlanmış silahlı münaqişə nəticəsində Azərbaycan ərazisinin xeyli hissəsi işğal edilib, bir milyona yaxın azərbaycanlı öz evlərindən qovulub. Cəbhə xəttinin yaxınlığında yerləşən bir sıra yaşayış məntəqələri demək olar ki, hər gün raket zərbələrinə məruz qalır. Cəbhə xəttindən xeyli uzaqda yerləşən Bərdəyə hücum münaqişənin eskalasiyasının nəticəsidir.

Qell Bərdənin mərkəzində yaranmış kədərli mənzərəni belə təsvir edir: "Dağıdılmış maşınlar qeyri-standart istiqamətdə dayanmışdı. İki maşında olan cəsədlərin üzərinə adyal örtülmüşdü. Digər avtomobilin yanında bir cüt ayaqqabı görünürdü. Yola tökülmüş qan ətrafı qara rəngə boyamışdı. Havadan partladıcı maddə iyi gəlirdi".

Bərdə şəhərinin mərkəzinə raket zərbəsi nəticəsində 21 nəfər həlak olub, daha 70 nəfər yaralanıb. Qell yazır ki, hakimiyyət orqanlarının məlumatına görə, kasetli bombalar yayan raketlər "Smerç" tipli yaylım atəşi sistemindən atılıb. Açıq sahələrdə ordulara qarşı istifadə edilmək üçün nəzərdə tutulan kasetli bombalar yaşayış rayonlarında mülki əhali üçün çox təhlükəlidir. Ona görə də dünyanın əksər ölkələrində bu silahdan istifadə edilməsi qadağan olunub.

Müəllif daha sonra yazır ki, həmin gün səhər bir qrup jurnalist Bərdənin yaxınlığındakı Qarayusifli kəndinə baş çəkib. Burada yerli əhali raket atəşi nəticəsində həlak olanları dəfn edirdi. Qarayusifli kəndinin dörd sakini, o cümlədən 7-yaşlı qız həlak olub, 10-dan çox insan yaralanıb.

### CGTN ermənilərin Bərdəyə raket hücumundan yazır

Çin Mərkəzi Televiziyasının ingilis dilində yayımlanan CGTN (China Global Television Network) kanalının internet səhifəsində Ermənistanın oktyabrın 28-də Bərdəyə raket hücumu nəticəsində mülki şəxslərin həlak olması və yaralanması barədə məqalə yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevə istinadla Ermənistan silahlı qüvvələrinin Bərdəyə "Smerç" qurğusundan raketlər atdığı bildirilib. Qeyd olunub ki, Dağlıq Qarabağdan kənarda yerləşən Bərdəyə hücum nəticəsində 21 nəfər ölüb, onlarca dinc sakin yaralanıb. Bu, son toqquşmaların başladığı bir aylıq dövrdə mülki insanlar arasında ən çox ölümlə nəticələnən hücumdur. Materialda ermənilərin oktyabrın 27-də Bərdəyə əvvəlki raket hücumu nəticəsində isə 1-i iki yaşlı uşaq daxil olmaqla, 4 nəfərin həlak olduğu xatırladılıb.




Yazıda Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə də məlumat verilib. Qeyd olunub ki, Ermənistanın dəstəklədiyi separatçılar 1990-cı illərdə 30 min nəfərin ölümü ilə nəticələnən müharibə zamanı Dağlıq Qarabağa nəzarəti ələ alıblar. Onların elan etdiyi "müstəqilliyi" Ermənistan da daxil olmaqla, heç bir ölkə tanımayıb. Dağlıq Qarabağ beynəlxalq hüquqa əsasən Azərbaycanın ərazisidir. Sentyabrın 27-dən başlayan döyüşlərin gedişində Azərbaycan 1990-cı illərdə itirdiyi əraziləri azad edir. Ermənistan bu döyüşlərdəki itkilərini etiraf edib və könüllüləri cəbhədə döyüşməyə çağırıb.

### Ukrayna KİV-ləri Ermənistanın Azərbaycanın Bərdə şəhərini raket atəşinə tutması barədə məqalələr yayıb

Ukraynanın aparıcı KİV-ləri Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Bərdə şəhərini raket atəşinə tutması barədə məqalələr yayıb. AZƏRTAC xəbər verir ki, Ukraynanın nüfuzlu UNİAN informasiya agentliyində, "RBK-Ukrayna", "Seqodnya", "Korrespondent", "Dialog" portallarında dərc edilən məqalələrdə, "Ukraina-24" telekanalında efirə gedən reportajlarda Bərdə şəhərinə edilən raket hücumu nəticəsində 20-dən çox mülki vətəndaşın həlak olduğu qeyd edilir.

Məqalələrdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Baş Prokurorluğun Bərdə faciəsi ilə bağlı fikirləri yer alıb.

"Ukraina-24" telekanalında isə deputat Rüfət Quliyevin Ermənistanın Bərdəyə raket hücumu ilə bağlı müsahibəsi yayımlanıb.

## “Vətəndaşlarımıza qarşı cinayət törədənlər layiqli cavablarını alacaqlar”



“İşğalçı erməni ordusunun Bərdədə dinc sakinləri qadağan olunmuş silahlarla raket atəşinə tutması hərbi cinayətdir. Bu eyni zamanda hər nə qədər ermənilər tərəfindən törədilən hərbi cinayətdirsə, bir o qədər də bu cinayətlərə susanların, Ermənistanı qınamayan beynəlxalq təşkilatların da ortaq olduğu cinayətdir. Çünki beynəlxalq təşkilatların, insan hüquq müdafiəçisi olan təşkilatların Gəncədə, Naftalanda, Tərtərdə törədilən hərbi cinayətlərə göz yummaları, susqunluq nümayiş etdirmələri erməni terrorçularını belə cinayətləri təkrar etməyə həvəsləndirir. Düşünürəm ki, bu cinayət qınanmayacaq və cəzasız qalacaq. Ona görə də insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar ermənilərin dinc əhalini hədəfə almasına səssiz qalmamalıdırlar”. Bunu SİA-ya “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

Millət vəkilinin sözlərinə görə, Gəncəyə və Bərdəyə bu cür hücumlar hərbi cinayət olmaqla bərabər həm də dövlət səviyyəsində törədilən terror aktlarıdır: “İnsan Hüquqlarının müdafiəsi ilə məşğul olan ayrı-ayrı təşkilatlar çox təəssüf ki, ermənilərin törətdiyi bu cinayətlərə susqunluq nümayiş etdirirlər. Bu susqunluq əslində Ermənistanı dəstəkləmək anlamına gəlir. Düşünürəm ki, heç olmasa bundan sonra müvafiq insan hüquqları institutları, beynəlxalq və humanitar təşkilatlar, ayrı-ayrı dövlətlər bu məsələyə ciddi qınaq nümayiş etdirməklə işğalçı ölkəni bu cür addımlardan çəkindirməlidirlər. Cəzaya gəldikdə isə Azərbaycan ordusu, Azərbaycan əsgəri dinc sakinlərimizə qarşı cinayət törədən terrorçu erməniləri döyüş meydanında layiqincə cəzalandırmağı bacarır. Bərdə şəhərində törədilən cinayətin də qisası artıqlaması ilə alındı və alınacaq. Lakin bu hadisələr bir həqiqəti yenidən ortaya çıxardı ki, özünü dünyaya insan hüquqlarını müdafiə edən təşkilatlar kimi göstərənlər əslində insan hüuquqlarının müdafiəçisi ideyil, sadəcə bu mövzunu əllərində siyasi alətə çevirərək, ayrı-ayrı ölkələrə siyasi təzyiq mexanizmi kimi istifadə edən qurumlardır. Buna görə də Azərbaycan öz ordusuna güvənir. Azərbaycan vətəndaşlarına qarşı hər hansı bir cinayət törədənlər ordumuz tərəfindən mütləq layiqli cavablarını alacaqlar”.

*Ceyhun Rasimoğlu*

## Bəhruz Quliyev: “Erməni cəmiyyəti Paşinyan iqtidarının girovluğunda qalmaq istəmir”



“Ermənistanda insanlar təkcə ordunun acı məğlubiyyəti, ölkədə hərc-mərclik, özbaşınalıqdan deyil, həm də gü-nü-gündən ağırlaşan sosial-iqtisadi durumdan ciddi narazıdırlar. Hazırda Ermənistanda ərzaq da daxil olmaqla, əksər məhsulların qiymətində artım müşahidə olunur ki, bu da onsuz da ciddi sıxıntılar içərisində olan sıravi insanların vəziyyətini daha da ağırlaşdırır”. SİA-nın verdiyi məlumata görə, bunu Trend-ə açıqlamasında SƏS Media qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib. Onun sözlərinə görə, Ermənistanda hakimiyyət içindəki qüvvələr, klanlar arasında qarşıdurma və ziddiyyətlər o qədər kəskinləşib ki, ölkədə tam xaos hökm sürür: “Ümumiyyətlə Ermənistanda vəziyyətin ağırlaşması təkcə sadaladığım amillərdən ibarət deyil. Sosial-iqtisadi vəziyyəti ağır olan Ermənistanda həm də əsgər anaları ciddi narazılıq içərisindədir. Hətta Ermənistanda Dağlıq Qarabağda öldürülən əsgərlərin valideynləri etiraz aksiyasına başlayıblar. Aksiyada onlar Ermənistan rəhbərliyindən “Boş yerə övladlarımızı məhv etməyin”, “Meyitlərimizi verin” kimi şüarlar səsləndiriblər. Erməni ailələri artıq günlərdir ki, sosial şəbəkələrdə övladlarının fotosunu yayaraq, itkin kimi qeydə alınan əsgərlərin tapılmasını tələb edirlər. Bununla belə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə Ermənistan tərəfinə həlak olmuş hərbçilərin cəsədlərinin birtərəfli qaydada qaytarılması təşəbbüsü ilə çıxış etsə də Ermənistan rəhbərliyi hələ ki, bundan imtina edib. Bu faktların özü artıq Ermənistanın daxilində çox ciddi problemlərdən xəbər verir”.

B.Quliyev bildirib ki, istər əvvəlki hakimiyyət, istərsə də bugünkü Paşinyan “dəstəsi” Dağlıq Qarabağ münaqişəsinin ədalətli və düzgün yolla nizamlanmasını istəmədiyini sübut etməkdədir: “Artıq 27 ilə yaxındır ki, Ermənistan Azərbaycanın ərazilərinin 20 faizini işğal altında saxlayır. Bu, bütün dünya tərəfindən tanınmış faktdır. Bununla bağlı BMT Təhlükəsizlik Şurasının qətnaməsində də işğal faktı əksini tapıb. Və bu qətnamələr kağız üzərində qalmaqdadır. Ermənistan da Dağlıq Qarabağ münaqişəsinin ədalətli və düzgün yolla nizamlanmasını arzulamır, ancaq demaqogiya ilə məşğuldur. İrəvan özünü bütün dünyada qurban kimi qələmə verir, əslində isə işğalçıdır”.

Baş redaktor əlavə edib ki, bu gün ermənilər anlayırlar ki, Azərbaycan ərazilərinin işğalına son qoyulması və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri ərazilərdən çıxarılması sülh və onların təhlükəsizliyinin yeganə qarantıdır: “Azərbaycan iqtisadi və hərbi baxımdan Ermənistandan xeyli güclüdür. Son hadisələr də onu göstərdi ki, Ermənistanda yerləşən Rusiya hərbi bazaları ermənilərin təhlükəsizliyinə zəmanət vermir. Ermənistan hər nə qədər xaricdən muzdlular, terrorçular cəlb etsə də, cəmi 30 günə Azərbaycana ağır şəkildə məğlub oldu. Belə olduqda, erməni silahlı birləşmələrinin bir yolu qalır - işğal olunmuş əraziləri tərk etmək və iqtisadi baxımdan güclənən Azərbaycanın ərazi bütövlüyünü tanımaq. Erməni cəmiyyəti Nikol Paşinyan iqtidarının girovluğunda qalmaq istəmir və ən maraqlısı odur ki, onların gələcək inkişafı da Azərbaycan Konstitusiyasına əməl etməkdən keçir”.

*Ceyhun Rasimoğlu*

## İqor Korotçenko: Bəs Avropa İttifaqı niyə susur?

Rusiyanın tanınmış hərbi-siyasi eksperti, politoloq İqor Korotçenko Avropa İttifaqının Dağlıq Qarabağla bağlı çağırışını ittiham edən fikirlə çıxış edib. SİA rus politoloqun teleqram səhifəsindəki fikirlərini diqqətə çatdırır. SİTAT: “Avropa İttifaqı Dağlıq Qarabağda hərbi əməliyyatların davamının, dinc əhaliyə zərbələr endirilməsinin yolverilməz olduğunu hesab edir və tərəfləri dərhal sülh danışıqlarına başlamağa çağırır. Bu barədə Aİ-nin xarici siyasət idarəsinin rəsmisinin bəyanatında bildirilib. Bəs nəyə görə Aİ Ermənistanın Azərbaycanın Bərdə şəhərinə endirdiyi raket zərbələrini pisləyən bəyanatla çıxış etmir? 21 insan həlak olub”, deyə İqor Korotçenko adıçəkilən təşkilata haqlı iradını yönəldib.




*Rövşən RƏSULOV*

## Vüqar Rəhimzadə: Bərdə soyqırımı kar-kor dünyanın gözünü və qulağını açması üçün növbəti çağırışdır



Döyüş meydanında Azərbaycan Ordusu qarşısında diz çökən qorxaq Ermənistan yenə də mülki əhalini hədəf seçdi. Oktyabrın 28-də Ermənistan silahlı qüvvələrinin Bərdədə dinc əhaliyə qarşı “Smerç” tipli yaylım atəşli reaktiv sistemləri ilə raket zərbələri nəticəsində 21 nəfər həlak olub, 70-dən çox mülki vətəndaş ağır yaralanıb. Ermənistan ordusu tərəfindən dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı böyük cinayətdir. Bu cinayətə laqeyd qalmaq isə onun iştirakçısına çevrilmək deməkdir. Amma aparıcı dünya dövlətləri, nüfuzlu beynəlxalq təşkilatlar ya bunu dərk etmir, ya da maraqlarına cavab vermədiyi üçün hər dəfə susmağı çıxış yolu hesab edirlər. Dövlətimizin başçısı İlham Əliyevin böyük inam və qətiyyətlə bəyan etdiyi kimi, tezliklə bu müharibə qurtaracaq, biz istədiyimizə nail olacağıq. Bəs, necə olacaq bizim münasibətlərimiz? Azərbaycan xalqı bu haqsızlığı unudacaqmı? Unutmayacaq. Bu gün Azərbaycana qarşı bütün imkanları səfərbər edən dövlətlər bunu bir daha fikirləşsinlər. Azərbaycan o dövlətlərdən deyil ki, onun maraqlarını kimsə kənara qoya bilsin. Gün gələcək, həmin dövlətlər əməkdaşlıq təklifləri ilə gələcəklər. Bəs, hansı üzlə bizə baxacaqlar? Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya bildirib.

V.Rəhimzadə qeyd edib ki, beynəlxalq birlik Ermənistanı törətdiyi cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmir: “İşğalçı dövlət bu terror əməllərini bilərəkdən, məqsədli şəkildə həyata keçirir. Hamının bildiyi həqiqətdir ki, kasetli bombalardan istifadə edilməsi beynəlxalq qanunla qadağan edilib. Əgər dünya dövlətləri, nüfuzlu beynəlxalq təşkilatlar münasibətlərdə hüquq probleminin yaşanmamasını düşünürlərsə, niyə terror əməllərini dövlət səviyyəsində həyata keçirən Ermənistana hələ də “gözün üstə qaşın var” demək istəmir, müharibə canisi Nikol Paşinyanın əmri əsasında həyata keçirilən cinayət əməllərinə göz yumurlar? Budurmu ədalət, budurmu beynəlxalq hüquq?”.

Dövlətimizin başçısı İlham Əliyevin “Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq” fikirlərini önə çəkən baş redaktor bildirib ki, məhz ATƏT-in Minsk qrupunun həmsədrlərinin problemə ikili standartlar əsasında yanaşmasının nəticəsidir ki, münaqişənin nizamlanması ilə bağlı istər son 30 ilə yaxın müddətdə, istərsə də son bir ayda davam edən Vətən müharibəsi dövründə aparılan danışıqlar bir qayda olaraq ermənilər tərəfindən təxribatların törədilməsi ilə müşayiət olunub. Artıq hər kəsə məlumdur ki, işğalçı dövlət sülh danışıqlarında maraqlı deyil. Birbaşa Nikol Paşinyan tərəfindən verilən əmrə əsasən Bərdə şəhərinin atəşə tutulması nəticəsində törədilən soyqırımı aktının məhz oktyabrın 30-da Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun ATƏT-in Minsk qrupunun həmsədrləri ilə Cenevrədə keçiriləcək görüşü ərəfəsində həyata keçirilməsi də təsadüfi deyil. Gəncənin birinci dəfə atəşə tutulması Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin Moskva görüşündən sonraya, ikinci dəfə soyqırımına məruz qalması isə ABŞ-ın təşəbbüsü ilə bu formatda keçirilən görüş ərəfəsinə təsadüf etmişdi. Bunu hər kəs dərk etdi, amma təəssüf ki, bu reallıq münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirməli olan ATƏT-in Minsk qrupunun həmsədrlərinə “çatmadı”.

V.Rəhimzadə qeyd edib ki, dövlətimizin başçısı İlham Əliyev son bir ayda xarici mətbuata bütün müsahibələrində, o cümlədən oktyabrın 28-də Rusiyanın İnterfaks agentliyinə müsahibəsində “öz gözlərində tiri görməyib başqasının gözündə çöp axtaran” Ermənistanın baş naziri Nikol Paşinyanın və ona havadarlıq edən dövlətlərin guya Türkiyə hərbçilərinin Azərbaycana sadəcə, kömək etmədikləri, onların hərbi fazaya fəal cəlb edildikləri ilə bağlı feyk xəbərlərinə münasibət bildirərkən bu məqamı xüsusi qeyd etmişdir ki, bu, üçüncü tərəfləri münaqişəyə cəlb etmək, münaqişəni beynəlmiləlləşdirmək və baş nazirin özünün alçaldılmış vəziyyətini ört-basdır etmək cəhdləridir. “İndi biz texnologiyalar əsrində yaşayırıq. Heç nəyi gizlətmək mümkün deyil” söyləyən ölkə Prezidenti İlham Əliyev bildirir ki, Paşinyan Gəncəyə ballistik raketləri Ermənistanın atmadığını da bildirir. Bu, sadəcə, axmaqlıqdır. Bu raketin haradan buraxılmasını, bu soyqırımı aktının icraçılarına hansı döyüş tapşırığı verilməsini Rusiya da, Amerika da, Fransa da çox gözəl bilir. Bu döyüş tapşırığının hədəfi yaşayış məhəlləsi idi. İkinci dəfə də yaşayış məhəlləsi oldu.

Baş redaktor vurğulayıb ki, Bərdə şəhəri də eyni məqsədlərlə atəşə tutulub: “Görünən budur ki, Ermənistan terror aktlarını davamlı şəkildə törədir, çoxlu sayda insan tələfatı olur, dağıntılar törədilir, sonra havadarlarının dəstəyi əsasında özünü baş verənlərdən nəinki xəbərsiz aparır, hətta həyasızcasına Azərbaycanı günahlandırır. Ermənistanın son bir ayda cəbhə bölgələrindən xeyli uzaqda olan yaşayış məntəqələrini, şəhərlərimizi raket atəşinə tutması onun yeni ərazilər uğrunda müharibə planlarının tərkib hissəsidir. İşğalçı Ermənistanı hər zaman silahlandıran dövlətlər həyata keçirilən terror siyasətinin məqsəd və məramını çox yaxşı bilirlər. Amma unudurlar ki, nümayiş etdirdikləri ikili standartlar əsasında siyasətlərinin ağır nəticələrini görən ölkələrin, o cümlədən Azərbaycanın nəzərində onlar artıq böyük dövlətlər, güc mərkəzləri kimi mövqelərini itirir, ədaləti, haqqı, ən əsası beynəlxalq hüququ ayaq altına atan Ermənistan kimi dövlətlərin yanında olmaqla kiçilirlər. BMT Təhlükəsizlik Şurasının son iclası hər bir dövlətin münasibətlərdə nə dərəcədə səmimi və ədalətli olduğunu nümayiş etdirdi”. “Ermənistanın vandalizminin və barbarlığının daha bir bariz nümunəsi olan Bərdə soyqırımı kar-kor dünyanın gözünü və qulağını açması üçün növbəti çağırış olsa da, yenə də aparıcı dövlətlərin və nüfuzlu beynəlxalq təşkilatların susmaları cinayət əməlinə şərikliyə bərabərdir” söyləyən V.Rəhimzadə bir daha bildirib ki, Azərbaycan Ordusu heç vaxt dinc əhalini atəşə tutmayıb: “Azərbaycan Ordusu erməniləri cinayət əməllərinin cavabını döyüş meydanında verir. İşğalçı Ermənistan və ona havadarlıq edən dövlətlər düşünməsinlər ki, bu terror aktları Azərbaycanı zəiflədir, xalqımızın iradəsini sındırır, əksinə, bu cür vandalizm aktlarından sonra biz daha da güclənir, qələbə əzmimiz, döyüş ruhumuz yüksəlir. Oktyabrın 28-də Azərbaycan Ordusunun Zəngilan, Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının 13 kəndini işğaldan azad etməsi Bərdədə törədilən terror aktına döyüş meydanında verilən cavabdır. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”.

# "Beynəlxalq hüquq və ədalət bizim tərəfimizdədir"

*Milli Məclisin İntizam komissiyasının sədri, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimovun yap.org.az-a müsahibəsi:*

***- Eldar müəllim, bu yaxınlarda Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 29-cu ili tamam oldu. Ötən dövr ərzində müstəqil ölkəmizin keçdiyi inkişaf yolu haqqında fikirlərinizi bilmək istərdik...***

- Müstəqilliyinin 29-cu ilini yaşayan Azərbaycan dövləti bir çox çətinliklərdən, ağır sınaqlardan keçərək, böyük inkişaf, tərəqqi yoluna qədəm qoyub. Bu gün Azərbaycan nəinki bölgənin ən güclü, ən qüdrətli dövlətidir, həm də dünyanın lider dövlətləri sırasında inamla addımlayır. Dünyanın enerji təhlükəsizliyinin ən önəmli iştirakçılarından və əsas aktorlarından birinə çevrilib. Azərbaycan bu gün dünyanın milli-dini tolerantlıq mərkəzi kimi tanınır, qəbul və etiraf edilir. Ölkəmiz dünya və regional miqyaslı tədbirlərin, toplantıların, forumların, yarışların keçirildiyi siyasi, iqtisadi, hərbi, mədəni, humanitar dialoq məkanıdır. Bu gün Azərbaycan dünyanın idman ölkəsi kimi də tanınmaqdadır.

Təbii ki, bunlar da elə-belə, özbaşına baş verməyib. Bunların arxasında illərin əməyi, zəhməti, fədakarlıqları dayanır. Bu nailiyyətlər Ulu Öndər Heydər Əliyev dühasından, Onun uzaqgörən daxili və xarici siyasət kursundan, neft strategiyasından, bu kursun layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyevin balanslaşdırılmış siyasətindən qaynaqlanır. Bu uğurların müəllifləri Ulu Öndər və ölkə Prezidenti cənab İlham Əliyevdir. Eyni zamanda, bu nailiyyətlərdə ölkənin Birinci xanımı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rolu, xidmətləri misilsiz, əvəzsizdir.

Heç təsadüfi deyil ki, ölkəmizin sürətli inkişafı, xoşməramlı, sülhpərvər, barışcıl mövqeyi sayəsində Azərbaycan son illərdə dünyanın ən nüfuzlu idman yarışlarının keçirildiyi bir məkan rolunu oynamaqdadır. Statistikaya nəzər salsaq, deyilənlərin quru sözlərdən ibarət olmadığı bir daha üzə çıxmış olar. Belə ki, 2015-ci ildə ilk Avropa Oyunları keçirildi. Hansı ki, bu Oyunların baş tutmaması üçün bütün ermənipərəst anti-Azərbaycan qüvvələr var-gücləri ilə çalışır, ölkəmizə qarşı hər cür qarayaxma kampaniyası aparırdılar. Amma ölkəmiz bütün bu cəhdləri fiaskoya uğratdı və ilk Avropa Oyunlarının keçirilməsinə nail oludu. Bu yarışlarda da Avropanın 50 ölkəsinin 10 000 idmançısı mübarizə aparmışdı.

Daha bir misal- 2017-ci ilin mayında nüfuzlu İslam Həmrəyliyi Oyunları, 4-cü "İslamiada" ölkəmizdə, Bakı şəhərində baş tutdu. Bu, çoxmillətli, multi-idman turniri idi. Özü də ilk dəfə idi ki, İslam Həmrəyliyi İdman Federasiyasının bütün 56 üzvü Oyunlarda iştirak etmişdi. Bununla yanaşı, 2016-cı ildən başlayaraq ilk dəfə olaraq Bakı dünyanın ən aparıcı avtoidman yarışı olan "Formula 1?ə ev sahibliyi etdi.

Bakıda keçirilən "Formula 1" hər kəsə böyük sürət , həyəcan vəd etdiyindən və eyni zamanda trek ətrafında möhtəşəm əyləncə tədbirləri, konsert proqramları olduğundan, dünya azarkeşləri paytaxtımıza səfər edərək , yarışı burada izləməyə böyük maraq göstərirdilər. Ümumilikdə, yarışı Bakıda izləmək üçün 20 mindən çox insan bilet almışdı. Azarkeşlərin böyük hissəsi Rusiya, Türkiyə və Gürcüstan ilə yanaşı, Avropanın aparıcı ölkələrindən də çox sayda turist yarışı Bakıda canlı olaraq izləmək üçün Azərbaycana səfər etdi. 500 milyona yaxın azarkeş isə yarışı canlı olaraq televiziya vasitəsilə izlədi.

Həmçinin, 2019-cu ildə Bakı şəhəri futbol üzrə Avropa Liqasının final oyununa möhtəşəm evsahibliyi etdi. Həmin ərəfədə də bütün məkrli dairələr Azərbaycana qarşı sözün əsl mənasında hücuma keçmiş, cəbhə açmışdılar. Amma Azərbaycan yenə də səbrlə bu hücumları dəf edərək, bir daha özünün necə mədəni, tolerant, inkişaf etmiş, xoşməramlı bir ölkə olduğunu dünyaya nümayiş etdirdi. Bütövlükdə hər il respublikamız çoxsaylı müxtəlif idman yarışlarına ev sahibliyi edir və hələ bundan sonra da bu istiqamətdə böyük zəfərlər yazılacaq.



Eyni zamanda, Azərbaycan bu gün dünyanın ən multiculturalist ölkəsidir. Çünki multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. Müstəqilliyini bərpa etdikdən sonra isə ölkədə multikulturalizm ənənələrinin gücləndirilməsinə dövlət dəstəyi formalaşıb. Azərbaycanda xalqların, dini inancların dostluq və qonşuluq şəraitində fəaliyyətini, onların birgə yaşamasını təmin edən siyasət həyata keçirilir.

Heç təsadüfi deyil ki, bir neçə il öncə ölkə Prezidentinin Fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldı, 2016-cı il Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edildi.

Həmçinin, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi təsis edildi ki, bu Mərkəz Azərbaycan elm və mədəniyyətinin görkəmli nümayəndəsi, dahi şair, mütəfəkkir Nizami Gəncəvinin irsinin araşdırılması və onun dünyada təbliğ olunması məqsədi ilə fəaliyyət göstərən beynəlxalq, qeyri-kommersiya və qeyri-siyasi beynəlxalq təşkilatdır. Mərkəz Azərbaycan Respublikasında təsis olunmasına baxmayaraq qərarverici qurumu dünyanın nüfuzlu ictimai və siyasi xadimlərindən təşkil olunmuş Beynəlxalq İdarə heyətidir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin əsas məqsədi müxtəlif xalqlar və mədəniyyətlər arasında dialoq, tolerantlıq və anlaşmanın təbliğ olunaraq Nizami Gəncəvinin əsərlərində təbliğ etdiyi ümumbəşəri dəyərlərin daha geniş miqyasda dünyaya təbliğ olunmasıdır. Onu da qeyd etmək lazımdır ki, bugünlərdə bu qurumun Beynəlxalq İdarə Heyəti Azərbaycanın apardığı haqq savaşına öz dəstəyini açıq ifadə etdi, Qarabağ məsələsinin həllində Azərbaycanın bütün addımlarını dəstəklədiyini ortaya qoydu.

***- Azərbaycan beynəlxalq müstəvidə də etibarlı tərəfdaş kimi tanınır. Ötən illər ərzində ölkəmizin beynəlxalq əlaqələrini əhəmiyyətli dərəcədə genişlənib...***

- Azərbaycan müstəqillik əldə etdikdən, dünyanın ən nüfuzlu təşkilatına-BMT-yə üzv qəbul edildikdən bu yana bütün beynəlxalq və regional qurumlarla səmimi, konstruktiv əməkdaşlığa üstünlük və onların işinə töhfələrə verir. Belə nüfuzlu təşkilarlardan biri də BMT-dən sonra dünyanın ikinci beynəlxalq qurumu olan Qoşulmama Hərəkatıdır. Qeyd edim ki, bu təşkilat özlərinin formal olaraq heç bir bloka tərəf olmadığını bildirmiş 120 dövlətin üzv olduğu, digər 17 ölkənin və 10 beynəlxalq təşkilatın müşahidəçi statusunda çıxış etdiyi beynəlxalq təşkilatdır. Hərəkatın yaradılması ideyası 1955-ci ildə Bandonq konfransında (İndoneziya) irəli sürülüb. 1961-ci ildə isə Fidel Kastro və marşal İosif Broz Titonun rəhbərliyi ilə Yuqoslaviyada keçirilən konfransda Bitərəf Dövlətlər Hərəkatının yaradıldığı elan olunub. Azərbaycan 2011-ci ildən Qoşulmama Hərəkatının üzvüdür.

Azərbaycan bütün dövlətlərlə əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə yönəlmiş xarici siyasət kursu və heç bir hərbi bloka qoşulmadan balanslı siyasət həyata keçirir. Bu səbəbdən ölkəmiz müşahidəçi statusuna malik olduğu Qoşulmama Hərəkatına 2011-ci ildə tamhüquqlu üzv olmaq qərarını verib. Həmin il Balidə keçirilmiş XVI Nazirlər Konfransında hərəkata qoşulub. Ölkəmizin ərazi bütövlüyü təşkilat çərçivəsində üzv-dövlətlər tərəfindən birmənalı şəkildə tanınıb və haqlı mövqeyimiz beynəlxalq səviyyəli məsələlərdə daim dəstəklənib.

2018-ci ilin 5 aprel tarixində Bakıda "Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusunda Qoşulmama Hərəkatının nazirlər konfransı keçirilib. Bu gün reallıq ondan ibarətdir ki, Azərbaycan Qoşulmama Hərəkatının ruhuna və prinsiplərinə sadiqdir. Ölkəmiz bütün dövlətlərlə əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə yönəlmiş xarici siyasət kursu və heç bir hərbi bloka qoşulmadan tarazlı siyasət həyata keçirir.

***- Qoşulmama Hərəkatının Azərbaycanın ərazi bütövlüyünə birmənalı dəstəyini necə dəyərləndirirsiniz?***

- Məhz Qoşulmama Hərəkatı tərəfindən ölkəmizə olan etimadın və dövlətimizin artan nüfuzunun göstəricisidir ki, qısa müddət ərzində üzv olmasına baxmayaraq, üzv dövlətlər tərəfindən yekdilliklə Azərbaycanın bu təşkilata sədrliyi dəstəkləndi. Belə ki, 2019-cu ilin oktyabrın 25-də ölkəmizdə Qoşulmama Hərəkatı üzvlərinin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü keçirildi. Növbəti üç ildə Azərbaycan 120 ölkəni birləşdirən bu mötəbər quruma sədrlik edir.

Bildiyiniz kimi, Azərbaycan bu quruma rəhbərlik etməyə başladıqdan bir müddət sonra dünya koranvirus adlı bəla, gizli düşmənlə üz-üzə qaldı və bu düşmənlə mübarizə hələ də davam etməkdədir. Azərbaycan bu məsuliyyətli və həssas dönəmdə də öz sözünü deməkdə, Qoşulmama Hərəkatına layiqincə rəhbərlik etməkdədir. Heç təsadüfi deyil ki, bir neçə ay öncə məhz ölkə Prezidentinin təşəbbüsü ilə Qoşulmama Hərəkatının videokonfrans formatında möhtəşəm Zirvə görüşü keçirildi və Azərbaycan bir daha öz əməli addımları ilə bu qurumun işinə töhfələrini verdi.

Azərbaycan koronavirusla mübarizədə dünyanın bir neçə qurumuna, ölkəsinə, o cümlədən, Qoşulmama Hərəkatının üzvü olan ölkələlərə maddi dəstək göstərdi, yardım əlini uzatdı. Bir daha göstərdi ki, o, hansısa qurumun formal üzvü deyil və ya ona formal sədrlik etmir, həm də əməli addımları ilə töhfələr verməyə çalışır, bu istiqamətdə əlindən gələni əsirgəmir.

Bu yerdə onu da təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Azərbaycan bu qurumla əməkdaşlığa başlayarkən, bəzi diletant şəxslər, beynəlxalq, xarici siyasətin nə demək olduğunu anlamayanlar çox əsassız fikirlər və iddialarla çıxış edirdilər. Az qala bu qurumun lazımsız olduğunu sübut etməyə çalışırdılar. Amma elə bugünlərdə BMT Təhlükəsizlik Şurasında Qarabağ məsələsi ilə bağlı aparılan müzakirələr və Qoşulmama Hərəkatının üzvü olan dövlətlərin qətiyyətli mövqe həmin iddiaların nə qədər boş və puç olduğunu göstərdi. Bir neçə gün öncə Azərbaycan xalqına növbəti müraciətində də ölkə başçısı həmin dövlətlərin Azərbaycana dəstəyini kişilik kimi qiymətləndirdi və dedi: "Minsk qrupunun həmsədr ölkələri BMT Təhlükəsizlik Şurasının iclasını çağırırlar. Bir dəfə artıq bunu etmişdilər. Orada qəbul edilmiş sənəd görünür ki, onları qane etmədi. Bu dəfə də bir neçə gün bundan əvvəl biz yeni sənədin ortaya çıxmasını gördük, xəbər tutduq. Dərhal biz hərəkətə keçdik və bu sənədin qəbul edilməsinə imkan vermədik. Baxmayaraq ki, üç həmsədr ölkə BMT Təhlükəsizlik Şurasına üzv olan digər ölkələrə böyük təzyiqlər edirdi. Nə idi bunun məqsədi? Məqsədi çox aydındır, 1993-cü ildə erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması barədə qəbul edilmiş qətnamələr kölgədə qalsın, onlar arxada qalsın, onlar ya qüvvədən düşsün, ya da ki, öz əhəmiyyətini itirsin. Bu idi məqsəd. Bu, nə dərəcədə ədalətlidir?

***Biz yenə də işğalçıya dəstək göstərilməsi cəhdini gördük. Amma nə oldu nəticədə? Keçmədi. Necə keçmədi? Qoşulmama Hərəkatına üzv ölkələr kişi kimi buna imkan vermədilər, bizə dəstək göstərdilər, sağ olsunlar. Baxmayaraq ki, onlara təzyiq göstərildi, bəlkə də hədələr oldu. Amma durdular kişi kimi bizim arxamızda, necə ki, biz onların arxasında dururuq. Bu, onu göstərir ki, keçməyəcək...Birləşdilər, yenə də Ermənistanın maraqlarına cavab verən sənədi ortalığa atdılar, amma keçmədi...".***

Bəli, ölkə Prezidentinin qeyd etdiyi kimi, çünki ədalət var. Nə qədər bu ədaləti pozsalar da, nə qədər bu haqqı yerə vursalar da, yenə də ədalət var. Ədalət və beynəlxalq hüquq bizim tərəfimizdədir. Ona görə biz yolumuza davam edəcəyik. Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik.

***- Ermənilər öz işğalçı siyasətinə haqq qazandırmaq üçün Qarabağın tarixini saxtalaşdırmağa çalışırlar. Buna münasibətiniz necədir?***

- Azərbaycan xalqı qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi özünü təsdiqləyib. Heç bir təzyiq bizə təsir edə bilməz. Çünki haqq yolundayıq, yumruq kimi birik. Bu birlik əbədidir və əbədi olacaq! Ali Baş Komandanın bildirdiyi kimi, biz düşməni torpaqlarımızdan sona qədər qovacağıq.

Qarabağın Azərbaycana məxsus, onun ayrılmaz tərkib hissəsi olması heç kim üçün sirr deyil və bu yöndə ikinci bir fikir də ola bilməz. Düşmənlərimiz, onlara havadarlıq edənlər nə qədər Qarabağın Azərbaycana aid olmadığını iddia etməyə çalışsalar da, bunlar sabun köpüyündən başqa bir şey deyil. 1921-ci ilin iyul ayının-Qafqaz bürosunun protokollarına baxmaq kifayətdir.

Qafqaz bürosunun protokollarında göstərilir ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın. Ölkə Prezidentinin bildirdiyi kimi, bütün bu illər ərzində saxta erməni alimləri, ermənilərə havadarlıq edən dairələr sübut etməyə çalışırlar ki, Stalin Dağlıq Qarabağı Ermənistandan ayırıb Azərbaycana verib.

"Yalandır! Açın, baxın Qafqaz bürosunun protokoluna, orada deyilir ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın! Bu, bir daha onu təsdiqləyir ki, bu, bizim torpağımızdır. Əfsuslar olsun ki, ondan sonra Dağlıq Qarabağ muxtar vilayəti yaradıldı, o bölgəyə xüsusi status verildi"-deyən ölkə Prezidenti onu da bildirdi ki, bu, respublika deyildi, vilayət idi. Yəni, orada daha aşağı səviyyəli bir özünüidarəetmə mexanizmi mövcud idi. Bütün bunlar bir daha onu göstərir ki, mənfur və murdar qonşularımızın xəstə təxəyyüllərinin məhsulu olan "Qarabağ Ermənistana məxsusdur" fikirləri başdan-ayağa yalan, iftira, tarixin qəsdən saxtalaşdırılması cəhdləridir. Bütün bunlara baxmayaraq, Ali Baş Komandanımızın dediyi kimi "Biz zəfər çalacağıq, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

# Vətəndaş məktubları: Cənab Prezident, ədalət mübarizənizdə canımızla, qanımızla Sizin yanınızdayıq!

***Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə vətəndaşlarımızdan, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyə və digər ölkələrin vətəndaşlarından məktublar gəlməkdə davam edir. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.***

Türkiyənin Balıkesir şəhərindən Berkut Gencay Sarıkız yazır: "Hörmətli cənab Prezident, mən məktəbliyəm. Azərbaycanı çox sevirəm. Düşünürəm ki, atamın mənə məktəb ləvazimatı almaq üçün verdiyi 100 türk lirəsini Azərbaycanın Silahlı Qüvvələrinə bağışlamağım, inşallah, əsgərlərimizə töhfəm olar. Mən isə hələlik köhnə dəftərimdən, qələmlərimdən istifadə edə bilərəm. Həmin pulun əsgərləriniz olan böyük qardaşlarıma daha çox kömək olacağına ümid edirəm. İnşallah, qələbə sizinlədir. Allah əsgərlərimizin ayağına daş, gözünə yaş salmasın".



Yozqat şəhərindən Hilalsu Mert yazır: "Hörmətli cənab Prezident, mənim 10 yaşım var. Sizi səmimi qəlbdən salamlayır, dəyərli böyüyüm kimi əllərinizdən öpür, uca Allaha Sizi qoruması üçün dua edirəm. Hər gün televiziyadan ölkənizin torpaqlarınızı işğaldan azad etmək üçün göstərdiyiniz mübarizəni həyəcanla izləyirəm. Mən inanıram ki, uğrunda şəhidlər verdiyiniz doğma torpaqlarınızı erməni zülmündən qurtaracağınız günlər yaxındadır. Biz bütün ailə üzvlərimizlə birlikdə Sizə və qəhrəman əsgərlərinizə görə dua edirik. Kədəriniz kədərimiz, sevinciniz sevincimizdir. Mən özümə məxsus sırğamı Azərbaycan əsgərinə kömək üçün yaradılan fonda bəxş etməklə, ümid edirəm ki, az da olsa igid əsgərlərimizə dəstək ola bilərəm. Allaha əmanət olun".

Giresun şəhərindən Erdal Adlan yazır: "Hörmətli cənab Prezident, müraciətimin əvvəlində tarixboyu Azərbaycanın və Türkiyənin azadlığı uğrunda şəhid olan bütün əsgərlərimizə Allahdan rəhmət diləyirəm. Cənab Prezident, keçən əsrin 90-cı illərinin əvvəlində 10 yaşım olsa da, Dağlıq Qarabağın işğal edilməsi barədə xəbərləri babamla birlikdə böyük ürək ağrısı ilə qarşıladıq, göz yaşlarımızı saxlaya bilmədik. İllərdir bu yara üreyimizdə qaysaq bağlamır, içimizi qanadırdı. Amma əmin idim ki, əsl türk olan azərbaycanlı qardaşlarım bir qarış torpaq belə verməzlər. Erməni terrorçularını doğma torpaqlarınızdan qovmanıza çox sevindim. Onları sonacan qovun, 10 yaşında olan uşaqlarımızın bir daha üzülməsinə imkan verməyin. Ermənilərin hələ 1915-1923-cü illərdə doğulduğum Giresun şəhərində törətdikləri vəhşiliklər, tarixboyu türklərə qarşı xainlikləri hələ də yaddaşlardan silinməyib. Siz mübarizənizdə qazandığınız qələbələrlə təkcə öz şəhidlərinizin deyil, erməni terrorunun qurbanı olan hər bir kəsin qisasını alırsınız. Türkiyə hər zaman candan əziz olan Azərbaycanın yanındadır. Ölkəmizin hər bir vətəndaşı Azərbaycan üçün canından belə keçməyə hazırdır və bunu özlərinə şərəf bilirlər. Mən, həmçinin türk qanı daşıyan hər kəs haqq işinizi hələlik dualarımızla dəstəkləyirik. Ədalət mübarizənizdə canımızla, qanımızla Sizin yanınızda olduğumuzu unutmayın. Şəhidlərinizə rəhmət, yaralılara şəfa diləyirəm. Tanrı türkü qorusun! Türk qanı daşıyan xoşbəxtdir".

Rusiyanın Moskva şəhərindən Namiq Əlimuradov: "Hörmətli cənab Prezident, artıq bir aydır ki, doğma Vətənim sevimli Azərbaycanımda baş verən hadisələri izləyirəm. Qarabağ torpaqlarının qaytarılması uğrunda savaşda Azərbaycan Ordusunun növbəti uğuru barədə hər dəfə xəbər alanda sevinc və qürur hissləri keçirirəm. Vətəndən xeyli uzaqda olmağım heç bir zaman mənim Azərbaycana sevgimi azalda, ölkəmə görə duyduğum fəxarət hissini zəiflədə bilməz. Cənab Prezident Sizə, eləcə də Azərbaycan xalqına mətanət, əzm və bütün işlərdə uğurlar arzulayıram. Valideynlərimizin bizə təlqin etdiyi və Azərbaycanda yaşayan bütün xalqlara xas olan qüvvətli haqq-ədalət hissi bizi baş verən hadisələrə biganə qalmağa qoymur. Hər an Azərbaycanın köməyinə gəlməyə hazıram, sözdə də, əməldə də. Bizim hamımıza, xüsusən də Sizə uğurlar diləyirəm, cənab Prezident. Haqq kimin tərəfindədirsə, o qalib gəlir, çünki haqq güclüdür. Qarabağ Azərbaycandır!".

Rusiyanın Novosibirsk şəhərindən Mayis Məmmədov: "Hörmətli cənab Prezident, sentyabrın 27-də Ermənistanın Azərbaycan mövqelərinə və yaşayış məntəqələrinə hücumuna cavab olaraq Azərbaycan Ordusunun başlatdığı və işğal edilmiş ərazilərin azad olunmasına yönəlmiş hərbi əməliyyatlar gedişində şəhid olmuş qardaşlarımıza görə "Rus-Azərbaycan Evi" Regional İctimai Təşkilatı adından və şəxsən öz adımdan bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm. Dinc əhali arasında həlak olanlar, yaşayış binalarında, eləcə də məktəblər və uşaq bağçaları daxil olmaqla ictimai binaların dağıdılması bizi hədsiz kədərləndirir. Dinc əhaliyə qarşı silah və güc tətbiqini biz qətiyyətlə pisləyirik. Hazırda biz - Sizin soydaşlarınız Vətəndən uzaqda olsaq da, cərəyan edən hadisələri, 30 ilə yaxın işğal altında olmuş torpaqlarımızın Azərbaycan Silahlı Qüvvələrinin əks-hücumu nəticəsində azad edilməsi prosesini diqqətlə izləyir, haqq-ədalət mübarizəsində Sizi dəstəkləyirik, çünki həmvətənlərimizin taleyinə biganə qala bilmərik. Bizim ürəklərimiz Azərbaycanla həmahəng döyünür. Ümid edirik ki, əldə olunmuş müvəqqəti atəşkəs münaqişənin nizamlanması üçün yeni imkan yaradacaq. İnanırıq ki, tarix və beynəlxalq hüquq nöqteyi-nəzərindən haqlı olan Azərbaycan döyüş meydanlarında olduğu kimi, diplomatiya sahəsində də öz üstünlüyünü davam etdirəcək, ədalətli mübarizəsini sona çatdıraraq Dağlıq Qarabağın Azərbaycanın tərkibinə qaytarılmasına nail olacaq, regionda sabitliyi, sülhü və asayişi bərpa edəcəkdir. İndi bizim gözəl ölkəmiz yeni sınaqla üz-üzədir. Lakin ötən illərin təcrübəsi bizə inanmağı, mübarizə aparmağı və qalib gəlməyi öyrədib. Hörmətli cənab Prezident, mən Sizin strateji siyasətinizi dəstəkləyir və qürur duyuram. İnanıram ki, qətiyyətli rəhbərliyiniz və həmişə xalqı doğru yola istiqamətləndirən müdrikliyiniz sayəsində bundan sonra da sülhü və hər kəs üçün rifahı təmin edəcəksiniz. Hansı ölkədə yaşamağımızdan asılı olmayaraq biz - soydaşlarınız Sizin siyasətinizi dəstəkləyirik, Azərbaycanda sabitlik və firavanlıq naminə əlimizdən gələni edəcəyik. Rusiya ilə Azərbaycan arasında böyük dostluq bir çox nəsillərdən bəri davam edir, Rusiya və Azərbaycan xalqları çətin vəziyyətdə bir-birlərinə kömək etməyə həmişə hazırdırlar. Ümidvaram ki, Rusiya-Azərbaycan dostluğu illər keçdikcə hər iki dövlətin tərəqqisi, rifahı və əməkdaşlığı naminə daha da dərinləşəcək, inkişaf edəcək və möhkəmlənəcək".

Tovuz sakini Kürzəli Bayramov dövlətimizin başçısına yazır: "Hörmətli cənab Prezident, işğaldan azad olunan bütün torpaqlara və yaşadığımız sevinc hisslərinə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin sayənizdə uzun illərin həsrətinə son qoyuldu, əzəli, əbədi torpaqlarımıza qovuşuruq. Sevinc hisslərimizi sözlə ifadə edə bilmirik. Hər zaman yanınızdayıq, cənab Prezident.

Şəki sakini Elvin Məmmədov: "Müzəffər Ali Baş Komandan, mən bir zabit olaraq Azərbaycanın bu haqq savaşında, işğal altında olan doğma torpaqlarımız uğrunda gedən Vətən müharibəsində canımdan, son damla qanımdan belə keçməyə hazıram. Bir Azərbaycan oğlu kimi ön cəbhədə düşmənlə üz-üzə vuruşaraq şəhidlərimizin intiqamını almaq istəyirəm. Müzəffər Ali Baş Komandan, hərbi anda sadiq qalacağıma, düşmənə qarşı vicdanla vuruşacağıma Sizi əmin edirəm. Əmrinizi gözləyirəm".

Şamaxı rayonunun sakini Rubabə Nuriyeva: "Hörmətli cənab Prezident, Sizin dərin savadınız, dünyagörüşünüz qarşısında dünyanın siyasət meydanında heç bir siyasətçi tab gətirə bilməz. Siz Azərbaycan xalqının xilaskarısınız. Gələcək nəsillər Azərbaycan deyəndə Sizi, İlham Heydər oğlu deyəndə isə Azərbaycanı xatırlayacaq. Allah Sizi qorusun. Yaşasın Azərbaycan xalqı! Yaşasın sevimli Prezidentimiz! Azərbaycanın şanlı Ordusuna eşq olsun!".

Saatlı rayonun sakini Fariz Ağayev: "Müzəffər Ali Baş Komandan, bu sevinci bizə yaşatdığınıza görə Sizə Saatlı sakinləri adından dərin minnətdarlığımızı bildiririk. Cənab Prezident, bir təhsil işçisi kimi inanıram ki, pedaqoji fəaliyyətimizi Şuşada, Xankəndidə, Laçında davam etdirəcəyimiz günlər lap yaxındadır. Bildirmək istəyirik ki, hər zaman Sizin əmrinizi gözləyirik. Hər birimiz Vətənimiz naminə son damla qanımızadək döyüşməyə hazırıq. Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!".

Bakı sakini Əli Dadaşov: "Cənab Ali Baş Komandan, dəyərli və güclü sərkərdə, mən Sizi və rəşadətli Ordumuzu səmimi qəlbdən təbrik edirəm. Mən sevinirəm ki, Sizin kimi Prezidentimiz var. Bizi dünyada qalib xalq kimi tanıtdınız. Sizin və qüdrətli Ordumuzun sayəsində bu qalibiyyəti qürur və sevinc hissləri ilə qeyd edirik. Bizə azad, firavan və bütöv Azərbaycan bəxş etdiyinizə görə Ordumuza və Sizə öncə özüm sonra isə bütün azərbaycanlı uşaqların adından minnətdarlığımı bildirirəm. Qarabağ Azərbaycandır!".

Quba sakini Günel Sultanlı: "Hörmətli cənab Prezident, zəfər çalmaqda olan bir xalqın nümayəndəsi, dövlətin vətəndaşı olmaq həqiqətən də qürurvericidir. Bu qürurverici anları bizə yaşatdığınız üçün Sizə təşəkkür edirik. Qarabağın alınması uğrunda apardığınız haqlı mübarizəni dəstəkləyir və Sultanovlar ailəsi olaraq Sizə etimadımızı bildirmək istəyirik. Bu haqlı mübarizədə hərbi həkim olaraq iştirak edən dayım daxil olmaqla bütün hərbçilərimizin fədakarlıqlarının nəticəsində qələbənin çox uzaq olmayacağına ümid edirik. İnanırıq ki, rəşadətli ordumuzun mübarizəsi və Sizin düzgün hesablanmış strategiyanız sayəsində yaxın zamanda bütün işğal olunmuş torpaqlarımız işğaldan azad ediləcək. Yeni zəfərlərinizi gözləyir və Sizi dəstəkləyirik".

Cəbrayıl sakini Gilas İbrahimova: "Cənab Prezidentimiz, mən Cəbrayılda anadan olmuşam. Yurdumuz işğal olunanda mənim 2 yaşım vardı. Bugünkü günlərə qədər Cəbrayıl haqqında məlumatı valideynlərimdən və digər mənbələrdən öyrənmişəm, amma artıq bu illərdən sonra Sizin və güclü Azərbaycan Ordusunun sayəsində öz gözlərimlə doğma torpaqlarımızı gedib görəcəyəm. Bunu da qeyd etmək istəyirəm ki, Sizin şad xə-

# Vətəndaş məktubları: Cənab Prezident, ədalət mübarizənizdə canımızla, qanımızla Sizin yanınızdayıq!



bərlərinizi və ruhlandırıcı çıxışlarınızı həsrətlə gözləyirəm. Tanrı Sizi və güclü Azərbaycan Ordusunu qorusun!".

Mingəçevir sakini İsmayıl İsmayılbəyli: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Ermənistan ordusunun sentyabrın 27-də səhər saatlarından başlayaraq bütün cəbhəboyu ölkəmizə qarşı yenidən təxribat törətməsi bu ölkənin təcavüzkar və işğalçı siyasətinin daha bir təzahürdür. Bu hücumlar nəticəsində, ilk növbədə, Vətəninin ərazi bütövlüyü uğrunda döyüşlərdə həyatını itirən şəhidlərimizə Allahdan rəhmət, yaralılara şəfa diləyirik. Ermənistan başda BMT Təhlükəsizlik Şurası olmaqla bir çox regional və beynəlxalq qurumların Dağlıq Qarabağ və işğal altındakı bütün rayonlardan qoşunlarını ən qısa vaxtda və qeyd-şərtsiz çıxarması barədə qətnamə və çağırışlarına baxmayaraq işğalı otuz ilə yaxın müddətdir ki, davam etdirir. Bu hücumları şiddətlə pisləyirik. İşğal altındakı Dağlıq Qarabağın və ona bitişik rayonların ən yaxın zamanda və mütləq azad olunacağına inanırıq. Azərbaycanda qaçqın və məcburi köçkün vəziyyətinə düşən bir milyona yaxın soydaşlarımız da evlərinə, öz doğma yurd-yuvalarına qayıdacaq. Hamımızın birlikdə şahidi olacağımız o günlər bizim üçün xoşbəxtlik, sevinc və ədalətin bərqərar edildiyi günlər olacaqdır. Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatları və qərarlılığı nəticəsində bu günədək işğal altında olan bir sıra torpaqlarımızın azad edilməsi mümkün olub. Bundan qürur duyuruq. Qələbə bizimdir! Qarabağ Azərbaycandır!".

Ağsu rayonundan Murad Cəbiyev: "Əziz Prezidentim, mənim 15 yaşım var. Bütün Azərbaycan xalqı kimi mən də, bütün şagird yoldaşlarım da Sizə and və güvənc yerimiz kimi baxır, Sizinlə və ordumuzla fəxr edirik. Oxuduğum məktəb Əfqanıstan müharibəsində həlak olmuş əmim Arif Cəbiyevin adını daşıyır. Əmim Toğrul Fərəczadə isə 2016-cı ilin Aprel döyüşlərində qəhrəmanlıq göstərərək şəhid olmuşdur. Ordumuzun düşmən üzərindəki şanlı qələbələrindən qürur duyuram. Əgər lazım gələrsə mən də bir gənc kimi əsgər olmağa, müqəddəs Azərbaycan torpağını qorumağa, əmim Toğrul Fərəczadə kimi qəhrəmanlıq göstərməyə hazıram".

Bakı şəhər sakini Cavad Quliyev yazır: "Müzəffər Ali Baş Komandan, bir talış, bir lənkəranlı olaraq Sizə təşəkkür edirəm. 30 ilə yaxın işğal altında qalan torpaqlarımızı, doğma Qarabağımızı düşmən tapdağından azad edirsiniz. Bu, Sizin yüksək savadınız və güclü iradənizin nəticəsində mümkün olmuşdur. Bütün xalqımız Sizə sonsuz təşəkkür edir və ətrafınızda sıx birləşib. Allah Sizi və mətin Ordumuzu qorusun! Cənab Prezident, çox təəssüflənirəm ki, bir vətəndaş olaraq, Vətənə olan borcumu yerinə yetirə bilmirəm. Çox istərdim ki, məni də Ordu sıralarına daxil etsinlər. Bu Vətən üçün canımı da, qanımı da verməyə hazıram. Yaşasın Ali Baş Komandan! Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!".

Qubadlı sakini Çingiz Salmanov: "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, nəhayət gözlədiyimiz gün gəldi. İyirmi yeddi il həsrətdən sonra Zəngəzurun qapısı adlandırılan Qubadlı rayonu mənfur düşmən tapdağından azad edildi. İllərdi bu günü gözləyir, Vətən həsrəti ilə yaşayırdıq. Artıq buna son qoydunuz, xalqımın qəhrəman, yenilməz oğlu. Bizi əbədi və əzəli dədə-baba torpaqlarımıza qovuşdurduğunuz üçün Sizə dərin təşəkkürümü bildirirəm. İnşallah, Sizin göstərişinizlə müzəffər Azərbaycan Ordusu digər işğal altında olan torpaqlarımızı yaxın günlərdə düşmən tapdağından azad edərək şanlı Azərbaycanımızın üçrəngli bayrağını yüksəklərə qaldıracaqdır. Cənab Prezident, Sizin bu haqq işiniz və adınız bir sərkərdə olaraq gələcək nəsillərin yaddaşında qalmaqla qızıl hərflərlə tarix dərsliklərində yazılacaqdır. Mən fəxr edirəm ki, mənim xalqımın Sizin kimi ağıllı, savadlı, uzaqgörən Prezidenti var. Allah Sizi qorusun. Qarabağ Azərbaycandır!".

Ağcabədi sakini Səbuhi Atakişiyev: "Hörmətli cənab Ali Baş Komandan, son günlər Azərbaycan Ordusu tarix yazmaqda davam edir. Çox xoşbəxtik ki, qazanılan qələbələrin canlı şahidiyik. Müzəffər Ali Baş Komandan, hər gün azad olunmuş torpaqlarımızın xəbərini eşitdikcə böyük qürur hissi keçiririk. Siz bu gün milyonların arzusunu reallaşdırırsınız, Sizə Ulu Tanrıdan güc qüvvət arzu edirik. İnanırıq ki, rəşadətli Azərbaycan Ordusu üçrəngli bayrağımızı Şuşada dalğalandıracaq. Eşq olsun Ali Baş Komandanımıza, eşq olsun Azərbaycan Ordusuna. Qarabağ Azərbaycandır!".

Bərdə sakini Rauf Xanlarov: "Hörmətli cənab Ali baş Komandan, Mən Sizinlə fəxr edirəm. Azərbaycanımızın torpaqlarının qarış-qarış azad edilməsi barədə dilinizdən çıxan sevinc dolu cümlələri, məntəqələrimizin adlarını çəkdiyiniz saniyələri qürurla izləyirəm. Cənab Prezident, son illər etdiyiniz kadr dəyişiklikləri, COVID-19 pandemiyası ilə apardığınız mübarizə tədbirləri və nəhayət ki, qəlbimizdə yara bağlamış Qarabağ həsrətinə son qoymaq üçün başlatdığınız Vətən müharibəsi bir daha sübut etdi ki, Siz var olduqca Azərbaycan xalqının yaşayacağı gözəl günlər çox olacaq. Sizə inanıram və güvənirəm. Kaş hər gün dilinizdən çıxan o "Qarabağ Azərbaycandır!" ifadəsini televiziyadan yox, Sizin qarsızında duraraq eşidəydim. Allah Sizi və rəşadətli əsgərlərimizi qorusun! Fəxr edirəm ki mən azərbaycanlıyam! Qarabağ Azərbaycandır!".

Bakı şəhər sakini Cavid Şamoyev: "Çox hörmətli Prezident, cənab Ali Baş Komandan, mənim adım Cavid Şamoyevdir. 13 yaşım var və torpaqlarımızın azadlığı uğrunda döyüşmək istəyirəm. Yaşım az olsa da, əlimdən gələni əsirgəmərəm. Mənim qardaşım hərbi xidmətdədir. Mən də onun kimi Vətənimin keşiyində durmaq istəyirəm. Əminəm ki, çox yaxın zamanda Siz başda olmaqla, Azərbaycan Ordusu qələbə qazanacaqdır. Sizə və qəhrəman əsgərlərimizə böyük uğurlar arzu edirəm. Yaşasın Azərbaycan! Yaşasın Ali Baş Komandan! Qarabağ Azərbaycandır!".

## GUAM Ermənistanın Azərbaycan şəhərlərini raket atəşinə tutmasını kəskin şəkildə qınayıb




Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat (GUAM) Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Bərdə və Tərtər rayonlarının raket atəşinə tutulmasını pisləyən bəyanat yayıb. AZƏRTAC xəbər verir ki, GUAM-ın "Twitter" səhifəsində yerləşdirilən bəyanatda çoxsaylı insan tələfatı ilə nəticələnən Ermənistanın raket hücumu kəskin şəkildə qınanılıb.

Bəyanatda deyilir: "Ermənistanın oktyabrın 27-28-də Azərbaycanın Bərdə və Tərtər rayonlarında mülki infrastrukturu raket atəşinə tutmasını qınayırıq. Bu hücumlar cəbhə bölgəsindən uzaqda yerləşən ərazilərdə çox sayda dinc insanın həlak olmasına və yaralanmasına səbəb olub. Onların arasında uşaq, qadın və yaşlı insanlar da var. Eyni zamanda, çox sayda mülki obyekt dağıdılıb. Ermənistanın dinc əhaliyə qarşı istifadə etdiyi ballistik raketlər və kasetli bombalar beynəlxalq hüquq tərəfindən qadağan olunub. Bu bəyanatla Ermənistan silahlı qüvvələrinin belə cinayət əməllərini pisləyirik. Beynəlxalq ictimaiyyət səmərəli mexanizmdən istifadə edərək Ermənistanı Azərbaycana qarşı müharibə cinayətləri törətməsinin qarşısını almalıdır".

## Ermənistanın Bərdəyə raket hücumu ərəb mətbuatının diqqət mərkəzində



Oktyabrın 28-də işğalçı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Bərdə şəhərinə raket hücumu və üç humanitar atəşkəsə rəğmən müharibə cinayətlərini davam etdirməsi barədə xəbərlər ərəb KİV-lərində geniş işıqlandırılıb. AZƏRTAC xəbər verir ki, "Aljazeera", "Skynews Arabia" və "Al Arabia" televiziya kanalları Bərdə şəhərində 21 mülki insanın, o cümlədən 1 uşağın həlak olması, 70 nəfərin yaralanması haqqında reportajlar yayıblar. Reportajlarda qeyd olunub ki, Azərbaycan Ordusunun yeni əraziləri işğaldan azad etməsi fonunda Ermənistan mülki obyektləri və dinc əhalini hədəfə alır. Ermənistanın qadağan olunmuş kasetli bombalardan istifadə etdiyi də diqqətə çatdırılıb.

"Almasryalyoum" informasiya portalı isə AZƏRTAC-ın xəbərlərinə istinadla Bərdə şəhərində mülki insanların qətlə yetirilməsi və yaralanması haqqında geniş xəbər yayıb. Xəbərdə Azərbaycan Respublikası Baş Prokurorluğunun insan tələfatı və mülki obyektlərə vurulmuş zərərlə əlaqədar bəyanatı yer alıb.

Nüfuzlu "Əl-Əhram" qəzeti də Ermənistanın Bərdəyə raket hücumu haqqında geniş məqalə dərc edib. Məqalədə qeyd olunur ki, dinc əhalinin və mülki obyektlərin hədəfə alınması yolverilməzdir və bu addım münaqişənin daha da dərinləşməsinə səbəb olacaq.

# Rusiyalı hərbi ekspert: Paşinyan uçurum üzərindədir!

***Çoxsaylı məlumatlar göstərir ki, bir aydır davam edən döyüşlər müddətində qondarma "Dağlıq Qarabağ respublikası"nın qondarma "ordu"sunun hərbi potensialı məhv olmasa da, xeyli tükənib. Azərbaycan Ordusu isə öz döyüş potensialını saxlayır, hücumu davam etdirir və tədricən Qarabağın içərilərinə doğru irəliləyir. AZƏRTAC xəbər verir ki, bu barədə hərbi ekspert Vladislav Şurıqin yazır.***




"Svobodnaya pressa" nəşrində "Paşinyan uçurum üzərindədir" sərlövhəli analitik məqalədə qeyd edilir ki, "DQR" "ordusu"nun itkiləri çox böyükdür. "DQR" "Müdafiə Nazirliyi" dəqiq məlumatları elan etmir. Lakin bizim hərbi mənbələrdən aldığımız məlumata görə, bir aydır davam edən döyüşlərdə "DQR" "ordusu"ndan ölənlərin və yaralananların sayı 6 mindən çoxdur. Bu, həmin "ordu"nun müharibədən əvvəlki şəxsi heyətinin sayının 30 faizindən artıqdır. Azı 110 tank, yəni onların ümumi sayının təqribən 40 faizi, azı 12 yaylım atəşli raket sistemi - 30 faiz, 100-ə yaxın top və minaatan - 25 faizdən çox, azı 6 ədəd "Osa" zenit-raket kompleksi - 60 faiz itirilib, döyüş sursatı, yanacaq-sürtkü materialları və silah saxlanılan 100-dən çox anbar məhv edilib.

Müəllif yazır ki, "DQR" "ordu"su Ermənistandan daxil olan texnika, "DQR"in və Ermənistanın rezervistləri, digər ölkələrdəki erməni diasporlarından və Ermənistan ordusunun nizami bölmələrindən ibarət canlı qüvvə hesabına genişlənməsinə baxmayaraq, bütün bunlar böyük itkilərin əvəzini çıxmağa kömək edə bilməyib, müharibəni davam etdirmək üçün maddi ehtiyatların tükənməsini göstərən əlamətlər çoxdur, erməni qoşunlarının döyüş qabiliyyəti azalıb, şəxsi heyət arasında mənəvi pozğunluq yaranıb.

Məqalədə deyilir: "Azərbaycan Ordusunun qənimətlərinin get-gedə artması və onun Qarabağın içərilərinə doğru irəliləməsi buna sübutdur. Erməni əsgərlərin qohumları tez-tez çoxsaylı nəşrlərə müraciət edərək şikayətlənirlər ki, qoşunlarda döyüş sursatı, yanacaq və sürtkü materialları, dava-dərman və ehtiyat hissələrinin kəskin çatışmazlığı hiss edilir. Artilleriya mərmiləri və hava hücumundan müdafiə vasitələri qıtlığı daha kəskin hiss olunur. Bütün bunlar döyüşən əsgərlərə sarsıdıcı təsir göstərir, onlarda narazılıq doğurur və nəticə etibarilə Azərbaycan Ordusunun hücuma keçən hissələrinin təzyiqi altında Ermənistan qoşunları getdikcə daha çox hallarda ciddi müqavimət göstərmədən geri çəkilir, rayonları bir-birinin ardınca tərk edirlər. Əvvəl "DQR" tərəfindən zəbt edilmiş Azərbaycan rayonlarının yarısından çox hissəsi bu gün artıq Azərbaycan Ordusunun nəzarəti altındadır. Ermənistan Müdafiə Nazirliyi növbəti rayon mərkəzinin - Qubadlı şəhərinin itirilməsini etiraf etməli olub. Bu, o deməkdir ki, Azərbaycan Ordusu Stepanakerti (Xankəndi - red.) Ermənistanın Gorus şəhəri ilə birləşdirən strateji yola - belə adlandırılan "Laçın dəhlizi"nə xeyli yaxınlaşıb. Əgər Azərbaycan Ordusu bu yolu bağlamağa nail olarsa, "DQR" fəlakətli vəziyyətə düşəcək".

Müəllif yazır ki, Azərbaycan qoşunları qələbə əhvalındadır. Bir aylıq döyüş müddətində Azərbaycanın hərbi komandanlığı qoşunları getdikcə daha inamla və bacarıqla idarə edir. Qoşunlar özləri isə döyüş təcrübəsi qazanıb. Düşmən üzərində üstünlüyünə və ona qalib gələ biləcəyinə inanıb. Əsas diqqət havada və yerdə atəş üstünlüyünə yönəldilir. Erməni qoşunlarının mövqelərinin hücum edən qruplari artilleriya atəşinə tutulur, pilotsuz zərbə uçuş aparatları isə artilleriya silahları üçün əlçatmaz olan obyektləri və hədəfləri yüksək dəqiqliklə məhv edir, düşmən üçün əlavə qüvvələr, döyüş sursatı və yanacaq-sürtkü materialları gətirilməsinə mane olur. Düşmənin müqaviməti tamamilə qırıldıqdan sonra piyadalar irəli gedir, erməni qoşunlarının faktiki olaraq tərk edib getdikləri dayaq məntəqələrinin qalıqlarını təmizləyirlər.

Aşkardır ki, "DQR" "komandanlığı"nın sərəncamında olan qüvvələrlə Azərbaycan Ordusuna ciddi zərər vurmaq mümkün deyil. Erməni hərbi hissələrinin Dağlıq Qarabağ dağlarını yenilməz qalalara çevirə biləcək yeni müdafiə zolağı tikməyə artıq vaxt yoxdur. Həttə onlar gediş-gəlişin çətin olduğu dağlıq ərazidə azərbaycanlıları dayandırmağa nail olsalar belə, "Laçın dəhlizi" bloklanacağı halda Ermənistandan ayrı düşən Dağlıq Qarabağ qarşıdan gələn qışda fəlakətli vəziyyətə düşəcək. Bu halda Azərbaycan Ordusu əsas üstünlüyünü - havada üstünlüyü əldə saxlayacaq, bu da həm hərbi hədəfləri, həm də sosial və iqtisadi infrastruktur obyektlərini məhv etməklə mühasirəyə alınmış yerləri manevsiz surətdə "ölü zona"ya çevirməyə imkan verəcək.

Daha iki variant qalır. Birinci variantda Paşinyan öz acizliyini etiraf etməli, istefa verməli və bu problemlərin həllini ondan sonra baş nazir kabinetini dirçəldə biləcək şəxslərə həvalə etməlidir. İkinci variant - müharibəni dayandırmaq və Bakının irəli sürdüyü şərtlər sülh danışıqlarına başlamaqdır. Lakin bu variant faktiki təslim olmaqdan az fərqlənir. Paşinyan ümid edirdi ki, Azərbaycana və Türkiyəyə təsir göstərmək mexanizminə malik olan nüfuzlu kənar oyunçuları münaqişəyə müdaxilə edə bilərlər. Vasitəçi kimi Fransanı çağırmaq cəhdi tezliklə, heç məsləhətləşmələr həddinə çatmadan puç oldu. Türkiyə və Bakı Fransanı vasitəçi kimi qətiyyətlə rədd etdilər.

Bu şəraitdə Paşinyan dünyanın ən güclü dövləti olan ABŞ-ın Prezidenti Donald Trampın şəxsində yeni vasitəçi tapmağa cəhd göstərdi. Bu məqsədlə xarici işlər naziri Zöhrab Mnatsakanyanı Trampın yanına göndərdi. Mnatsakanyanı ABŞ-ın Dövlət Katibi Mayk Pompeo qəbul etdi. Sonra Pompeo Azərbaycan XİN-in rəhbəri Ceyhun Bayramova zəng vurdu və onunla söhbətdən sonra bəyan etdi ki, ABŞ-ın vasitəçiliyi ilə uzunmüddətli və səmərəli atəşkəs barədə razılıq əldə edilib. Bununla Tramp ona minnətdar olan Amerika ermənilərinin bir neçə min səsini qazandı. Lakin bu atəşkəs cəmi bir neçə saat çəkdi. Müharibə davam etdi. Məlum oldu ki, ABŞ da kömək edə bilməyib. Müəllif sonda yazır: "Artıq Əliyevə və Ərdoğana təsir göstərə biləcək heç bir kənar oyunçu qalmayıb. Müharibə isə davam edir və o, dramatik sonluğa yaxınlaşır".

# Yunus Oğuz: "Paşinyanın arxasında dayanan qüvvələr də artıq birbaşa Azərbaycana müdaxilə edə bilmirlər"



"Beynəlxalq aləm, dünya birliyinin Gəncə və Bərdə şəhərlərinə Ermənistanın terror hücumu həyata keçirməsinə göz yumması təbiidir və beynəlxalq aləm bu kimi insanlıq əleyhinə cinayətlərə göz yumacaq". Bu fikirləri yazıçı-publisist, "OLAYLAR" qəzeti və eyniadlı İnformasiya Agentliyinin rəhbəri Yunus Oğuz səsləndirib.

O, bildirib ki, beynəlxalq aləmin planları tamamilə başqa idi: "Onların planı nə idi? Birmənalı olaraq qeyd etmək lazımdır ki, Ermənistanın Gəncə və Bərdəyə hücumları terror, hərbi cinayətdir. Çünki bir dövlətin hərbi qurumu faktiki olaraq bizim mülki vətəndaşlarımızı, şəhər və rayonlarımızı atəşə tutur, həmin ərazilərə qadağan olunmuş kasetli bombalar atır. Qeyd etdiyim kimi bunun arxasında tamam başqa şeylər var. Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev beynəlxalq səviyyəli görüşlərdə, toplantılarda 17 ildir qətiyyətlə bəyan edirdi ki, Dağlıq Qarabağın müstəqilliyindən heç bir halda söhbət gedə bilməz və bu müzakirə predmeti deyil. Lazım gələrsə biz torpaqlarımızı müharibə yolu ilə azad edərik. Nikol Paşinyan da hakimiyyətə gəldikdən sonra Azərbaycan və Ermənistan rəhbərləri birbaşa Qarabağ problemini müzakirə etmək üçün masa arxasında oturmayıblar. Düzdür, hansısa beynəlxalq tədbirlər çərçivəsində görüşlər keçirilib. Lakin sırf Sərkisyan, Köçəryanın zamanında olduğu kimi birbaşa Qarabağ probleminin müzakirə edildiyi görüş baş tutmayıb".

Yunus Oğuz bildirib ki, əslində müharibəni Paşinyanın arxasında duranlar başladı: "Burada da məqsəd ondan ibarət idi ki, arxayınlıqla söylədikləri Ohanyan istehkamı yarıla bilməyəcək. Nəticə etibarilə Azərbaycan çoxlu sayda şəhid verəcək. Bu isə Azərbaycanda daxili narazılığa, kütləvi etirazlara səbəb olacaq. Yaxud Azərbaycan Ordusunun Ohanyan istehkamlarını dəf edə bilməyib məğlub olmasından sonra İlham Əliyevi məcbur edəcəklər ki, təslimçi müqaviləyə imza at. Məhz bütün bunların tərkib hissəsi idi ki, əvvəlcə ritorika başladı. "Yeni müharibə, yeni ərazilər" zəbt etmək barədə Ermənistan tərəfindən fikirlər səsləndi, "Qarabağ Ermənistandır, nöqtə" kimi sərsəm açıqlamalar verildi. Ardınca Paşinyan Şuşada, Cıdır düzündə sərxoş vəziyyətdə rəqs etdi, separatçı rejimin rəhbərinin andiçmə mərasimini keçirildi, qondarma parlamentin Şuşaya köçürüləcəyi kimi Azərbaycan tərəfini qıcıqlandıracaq hərəkətlər edildi. Bir sözlə, hər şey edirdilər ki, Azərbaycan müharibəyə başlasın. Əslində Tovuz hadisələrində də məqsəd bu idi. Ən əsası odur ki, onlar Azərbaycanın əks-hücum əməliyyatı ilə müharibəyə başlayacağını hesablamamışdılar. Düşünürdülər ki, Azərbaycan buna cəsarət etməyəcək. Çünki Paşinyanın generalları bütün dünyanın siyasi mənzərəsini müəyyənləşdirən insanların inandırmışdılar ki, Azərbaycan heç birinci istehkamı yara bilməyəcək. Nəinki digər istehkamları. Müharibə başlayana qədərki dövrdə Azərbaycanın kənd və qəsəbələri, mülki insanlarının atəşə tutulmasında da məqsəd o idi ki, Azərbaycanı müharibəyə cəlb etsinlər".

Yunus Oğuz onu da bildirib ki, Azərbaycan da öz növbəsində neçə illərdir müharibəyə hazırlaşır, ordunun maddi-texniki bazasını möhkəmlədirdi: "Heç Rusiya da gözləmirdi ki, Azərbaycan bu cür uğurlu hərbi əməliyyatlar həyata keçirəcək. Azərbaycan isə erməni təxribatına cavab vermək və əks hücum əməliyyatına başlamaqla müharibəyə start verdi və Ohanyan istehkamlarını yara-yara getdi. Bütün bunların fonunda Azərbaycan Prezidenti İlham Əliyevi mat vəziyyətinə salmaq istəyənlərin özləri bu gün mat vəziyyətindədirlər. Faktiki olaraq Paşinyanın hakimiyyətdən getməsi gün kimi aydındır. Hətta tərəflər arasında sülh müqaviləsi bağlansa belə, Paşinyan hakimiyyətdən devriləcək".

Yunus Oğuzun sözlərinə görə, bu gün Paşinyanın arxasında dayanan qüvvələr də artıq birbaşa Azərbaycana müdaxilə edə bilmirlər: "İndiyə qədər deyirdilər ki, Qarabağ probleminin həllinin açarı Moskvadadır. Ancaq Azərbaycan uğurlu hərbi əməliyyatlar həyata keçirməklə Qarabağ probleminin həllinin açarının öz əlimizdə olduğunu sübuta yetirdi. Təbii ki, burada Azərbaycana bu haqq işində siyasi və mənəvi dəstək verən qardaş Türkiyəyə, eləcə də digər ölkələrə də təşəkkür düşür. Göründüyü kimi Azərbaycan bu müharibədən qalib kimi çıxır. İstənilən halda Cenevrədə keçiriləsi nəzərdə tutulan görüşdə Azərbaycan artıq diqtə edən tərəf olacaq. Əvvəllər Ermənistanın keçmiş rəhbərləri deyirdilər ki, biz həmin torpaqları qanla almışıq, müharibəsiz verək. İndi isə biz deyirik ki, ərazilərimizi qanla işğaldam azad etmişik". Yunus Oğuz onu da diqqətə çatdırıb ki, Azərbaycanın bir xalq kimi müharibəyə hazır olduğunu da heç kim gözləmirdi: "İnsanların kütləvi şəkildə orduya yazılmasını heç kim təsəvvür etmirdi. Faktiki olaraq "5-ci kolon"un Azərbaycanda xalq tərəfindən zərərsizləşdirilməsi baş verdi. Artıq onlar Azərbaycanda at oynada bilmirlər. Çünki xalqın təpkisi və ictimai qınaqla rastlaşırlar. Ən əsası odur ki, çoxları hələ də Aprel döyüşlərinin mahiyyətini başa düşmür. Aprel döyüşləri Ermənistanın qalib sindromunu sındırdı. Xalq anladı ki, müharibə də etmək olar, qələbə qazanmaq da".

# Konstantin Ter-Nakalyan: "Ermənilər boş ümidlərə qapılmasın"



"Erməni xalqı boş ümidlərə qapılmasın. Ermənistan ordusu Azərbaycan Silahlı Qüvvələri qarşısında dayana bilməz". SİA Ermənistan mətbuatına istinadən xəbər verir ki, bu barədə Ermənistanın "Adekvad" hərəkatının təsisçisi Konstantin Ter-Nakalyanın erməni xalqına müraciətində deyib. Onun sözlərinə görə, Ermənistan yorucu müharibə ssenarisi tətbiq edib. "Bunun əbədi davam edəcəyinə dair ermənilər boş ümidlərə qapılmasın. Azərbaycanın pulunun və resurslarının bizimkindən daha tez tükənəcəyinə ümid etmək lazım deyil. Bir vacib həqiqəti anlamalıyıq ki, Rusiya Qarabağı bizim üçün qorumayacaq və itirdiyimiz əraziləri nəzarətimizə qaytarmayacaq. O, yalnız Ermənistan Respublikasını xilas edə bilər", deyə "Adekvad" hərəkatının təsisçisi bildirib.

Cəbhə xəttindəki vəziyyətə toxunan erməni hərəkatının qurucusu Ermənistanın demək olar ki, bütün istiqamətlərdə "ağrılı" geri çəkilmə yaşadığını da vurğulayıb. "Hərbi texnika və xüsusi personal sahəsində Ermənistanın ciddi itkiləri var. Azərbaycan Ordusunun ehtiyatları tükənməzdir, bizim ordumuz isə artıq taqətdən düşüb".

# İsrailli ekspert: “Azərbaycan məsələni məntiqi sona çatdırmaq niyyətindədir və bu məsələdə heç bir yarımçıq variantlara baxılmır”

***BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair Dağlıq Qarabağ ərazisinin işğaldan azad edilməsi barədə dörd qətnaməsi var. Əgər Ermənistan işğal etdiyi Azərbaycan ərazilərini qaytarmaq istəmirsə, o halda müharibə qələbə əldə edilənədək davam edəcək. AZƏRTAC xəbər verir ki, beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin başçısı Arye Qut bu barədə İsrailin Doqquzuncu televiziya kanalının “Gün” analitik-informasiya proqramının birbaşa efirində bildirib.***



Arye Qutun sözlərinə görə, rəsmi Yerevan real şəkildə yaddan çıxarır ki, Azərbaycanın indiki ordusu - ən güclü, ən müasir texnika və silah-sursat, şəxsi heyətin yüksək səviyyəli döyüş hazırlığı, intizamı və döyüş ruhu deməkdir.

“Azərbaycan məsələni məntiqi sona, yəni öz ərazilərinin işğaldan tamamilə azad edilməsinə çatdırmaq niyyətindədir. Bu məsələdə heç bir yarımçıq variantlara baxılmır. Müasir müharibədə isə hərbi əməliyyatların daha qabaqcıl yüksək texnologiyalı vasitələrlə təchizatına malik olan tərəf qalib gəlir. 2016-cı il Aprel əməliyyatları zamanı erməni işğalçılara qarşı İsrail istehsalı olan zərbə pilotsuz uçuş aparatlarının səmərəli tətbiqini yada salmaq kifayətdir və bu haqda xeyli danışmaq olar. Heç kəs yaddan çıxarmayıb ki, Ermənistanın hərbi təxribatına cavab olaraq və öz vətəndaşlarının təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Silahlı Qüvvələri 2016-cı il aprelin əvvəlində erməni ordusuna sarsıdıcı hərbi zərbə endirmişdi. 2016-cı ilin Aprel hadisələrindən sonra Azərbaycan ordusu sürətli əks-hücuma keçərək erməni ordusunun müdafiə xəttini məhv edəndə, bir neçə strateji yüksəkliyə və yaşayış məntəqələrinə nəzarəti özünə qaytaranda biz Ermənistanda antiisrail isterikasını və antisemitizmini real şəkildə gördük”, - deyə israilli ekspert vurğulayıb.

Qut bildirib ki, o, il yarım bundan əvvəl təmas xəttində olub və atəşkəs rejiminin zəifliyini və amanabəndliyini real olaraq hiss edib. O deyib: “Müasir güclü və müstəqil Azərbaycan artıq XX əsrin 90-cı illərinin sonundakı ölkə deyil. Hamı yaxşı başa düşür ki, üçüncü ölkənin dəstəyi olmadan yoxsul və dilənçi Ermənistan Azərbaycan ərazilərinin 20 faizini işğal edə bilməzdi. Azərbaycanın səbri artıq çoxdan tükənmişdi.

Azərbaycan öz ərazilərinin azad edilməsi üzrə hərbi əks-hücuma davam edəcək, yoxsa danışıqlar masası arxasına əyləşəcək - bu, Ermənistanın danışıqlar prosesində konstruktiv mövqe tutmağa hazır olmasından asılıdır. Yəni Azərbaycan münaqişənin nizamlanmasının siyasi-diplomatik müstəviyə keçirilməsinin əleyhinə deyil. Lakin bunun üçün Yerevan Azərbaycan ərazilərinin işğalından əl çəkmək barədə beynəlxalq öhdəliklərini yerinə yetirməyə hazır olduğunu bildirməlidir. Rəsmi Bakı dəfələrlə bəyan edib və Ermənistana xəbərdarlıq edib ki, Azərbaycan mövcud status-kvo ilə heç vaxt razılaşmayacaq. İndiki vəziyyətdə vasitəçilər - ATƏT-in Minsk qrupu - Rusiya, ABŞ və Fransa bəyanatlar verməkdən başqa ümumiyyətlə prosesə qarışmırlar. Rusiya münaqişənin həllinə qarışa, təsir edə və real şəkildə kömək edə bilər. ABŞ Prezidenti Tramp ABŞ-da seçkiqabağı vəziyyəti əsas götürərək, münaqişə ilə bağlı bəyanatla çıxış edib”.

İsrail Azərbaycana humanitar yardım təqdim edib. İsrailin Azərbaycandakı səfiri Corc Dik humanitar yardımı Gəncə bələdiyyəsinə çatdırıb, atəşə tutulan yerlərdə olub, ölənlərin xatirəsinə ehtiram əlaməti olaraq oraya güllər qoyub və atəş nəticəsində doğmalarını və yaxınlarını itirmiş vətəndaşlarla görüşüb.

Arye Qutun fikrincə, İsrail-Azərbaycan strateji tərəfdaşlığı iki ölkənin müxtəlif sahələrdə sıx əməkdaşlığı və tərəfdaşlığı sayəsində inkişaf edib. Qeyd etmək yerinə düşər ki, İsrail Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olub. Avrasiyada heç bir ölkənin İsraillə dostluq əlaqələri Azərbaycan qədər sıx deyil. Bu, danılmaz faktdır.

“Birincisi, İsrail-Azərbaycan münasibətləri strateji və hərbi-texniki xarakter daşıyır və ən yüksək hökumətlərarası və dövlətlərarası səviyyədə etimada və daimi qarşılıqlı dialoqa söykənir. Bu gün bu strateji tərəfdaşlıq iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən kənd təsərrüfatı, yüksək texnologiyalar, səhiyyə və hərbi-texniki sahələrdə həyata keçirilir. Qeyd etmək lazımdır ki, İsrail dünya bazarında Azərbaycan neftinin əsas strateji alıcılarından biridir.

Əfsuslar olsun, Ermənistan o faktı qəbul edə bilmir ki, İsrailin Cənubi Qafqazda strateji tərəfdaşı məhz Azərbaycandır və Azərbaycan İsrail ilə hərbi-strateji tərəfdaşlıq nəticəsində hər cür texnoloji üstünlük əldə edir, bu üstünlüyə postsovet məkanının heç bir ölkəsi nail ola bilmir. Bu, bizim tərəfdaşlığımıza həsəd aparanlara real cavabdır. Ermənilər qibtə edə, provokasion hərəkətlər törədə, cəfəng fikirlər yaya bilərlər, lakin bu gün artıq tarixi faktdır ki, İsrailin müdafiə sənayesi şirkətləri Azərbaycan hərbi sənayesinin qurulmasında fəal iştirak ediblər və bunu davam etdirirlər”, - deyə Qut vurğulayır.

İsrailli ekspertin fikrincə, Azərbaycanın multikulturalizm və tolerantlıq sistemi sınaqdan uğurla çıxıb, Azərbaycanda dinlər və etnik qruplar arasında əsl harmoniyanı və dialoqu qoruyub saxlaya bilib.

“Yəhudi icmasının nümunəsində onu demək istəyirəm ki, azərbaycanlılar heç vaxt yəhudilərə əcnəbilər kimi baxmayıblar. Yəhudi xalqı əsrlərboyu müasir Azərbaycanın ərazilərində təqiblə, təhqirlə, talanla və antisemit hərəkətlərlə heç vaxt qarşılaşmayıb. Azərbaycanda nə vaxtsa olmuş hər bir yəhudi təsdiqləyə bilər ki, orada yaşayan yəhudilər sinaqoqa təhlükəsiz gedə bilirlər. Halbuki, hətta Qərbin inkişaf etmiş bəzi ölkələrində bu gün bunu etmək praktik olaraq mümkün deyil və çox təhlükəlidir.

Siz Milix Yevdayevin rəhbərlik etdiyi Bakı Dağ Yəhudiləri İcmasının gördüyü gözəl işlərə baxın. M.Yevdayev təkcə icmaya rəhbərlik etmir, həm də, eyni zamanda, Amerikanın nüfuzlu yəhudi saytlarında Azərbaycanın populyarlaşdırılması və Azərbaycan həqiqətlərinin yayılması ilə məşğul olur. Məhz Milix Yevdayevin israrı və real işgüzarlığı sayəsində Bakıda Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun çox gözəl abidəsi ucaldılıb. Bu abidə yəhudi və Azərbaycan xalqlarının dostluq və qəhrəmanlıq simvoludur.

Mən bir İsrail vətəndaşı olaraq, fəxrlə qeyd etmək istəyirəm ki, Azərbaycan rəhbərliyi və şəxsən Prezident İlham Əliyev yəhudi icmasına böyük hörmət nümayiş etdirir. Prezidentin himayəsi ilə iki sinaqoq və Cənubi Qafqazda ən iri yəhudi təhsil mərkəzi tikilib. Cənubi Qafqazda və bütövlükdə dünyada ilk dəfə olaraq dağ yəhudiləri muzeyinin yaradılması planlaşdırılır”, - deyə israilli analitik qeyd edib.

Arye Qut vurğulayır ki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı 28 ildən çoxdur davam edir. O deyib: “Bu təcavüz nəticəsində Azərbaycanda 1 milyondan çox insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Bu mürəkkəb geosiyasi vəziyyətdə Azərbaycanın ədalətli mövqeyinin Yaxın Şərqdə mühüm strateji tərəfdaş və güclü geosiyasi aktor olan İsrail Dövləti tərəfindən dəstəklənməsi Azərbaycan üçün çox mühüm və zəruridir.

Dünya işğal edilmiş torpaqlarda erməni millətçiləri və faşistlərinin dinc Azərbaycan əhalisinə qarşı törətdiyi vəhşiliklər və qəddarlıqlar barədə daha çox bilməlidir. Bu qətliamın qəddar və amansız səhnələri Azərbaycanın qəlbində sağalmaz yara kimi daim qalacaq.

Azərbaycanın qədim yaşayış məntəqələrindən biri - Xocalı şəhəri cəmi bir gecədə dağıdılıb və yandırılıb. Bu faciə bəşəriyyətə qarşı cinayətkarlıqdır. Bu, artıq tarixi faktdır ki, erməni silahlı qüvvələri və muzdlulardan ibarət dəstələr Xocalı şəhərini və onun ətrafını tərk etməyə macal tapmamış sakinlərin heç birinə rəhm etmədilər.

Erməni silahlı dəstələrinin vəhşiliyi nəticəsində 613 nəfər qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin - qocalar, qadınlar, uşaqlar əsir götürülərək, misli görünməmiş işgəncələrə, əzablara, təhqirlərə və alçaldıcı hərəkətlərə məruz qaldılar. Xocalı şəhərinin mülki əhalisinin kütləvi şəkildə qərəzli məhv edilməsinin yeganə səbəbi onların hamısının azərbaycanlı olmaları idi. Xocalının yolları meyitlərlə örtülmüş qarlı və qanlı palçığa dönmüşdü”.

Arye Qutun sözlərinə görə, azərbaycanlı qaçqınların öz torpaqlarından qovulması Avropada İkinci Dünya müharibəsi dövründən bəri bu qəbildən olan ən kütləvi hadisə idi. “Azərbaycana və onun xalqına xəyanət edilmiş, bu adamlar aldadılmış və atılmışdı... Xocalı şəhəri Azərbaycan ərazilərinin işğalında və etnik təmizləmədə, sarsıdıcı qəddarlıq qarşısında çaxnaşma və qorxu yaradan növbəti mərhələ idi. Xocalıda misli görünməmiş amansızlıqla və vəhşiliklə törədilən qanlı soyqırımı aktı XX əsrin sonlarında ən dəhşətli faciələrdən biri olub. Bu qətliamın qəddar və amansız səhnələri azərbaycanlıların qəlbində sağalmaz yara kimi daim qalacaq”, - deyə Arye Qut bəyan edib.

“Və nəhayət, Azərbaycan özünün bütün beynəlxalq tərəfdaşlarına mesaj göndərir - rəsmi Bakı beynəlxalq qüvvələrin münaqişəyə aid mövqelərini və fəaliyyətini (həm siyasi-diplomatik, həm də hərbi-siyasi müstəvidə) diqqətlə izləyir. Axı gec və ya tez müharibə başa çatacaq, bizi isə qarşıda əməkdaşlıq gözləyir”, - deyə İsrailin Doqquzuncu televiziya kanalının “Gün” analitik-informasiya proqramının birbaşa efirində beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin başçısı Arye Qut bildirib.

## Andranik Köçəryan: “Daxili “bayraktarlar” daha təhlükəlidir”



Daxili “bayraktarlar” daha təhlükəlidir və Ermənistanın daxilində təhlükəli başqa proseslərin yarandığını görürəm. SİA Ermənistana məxsus armenianreport.com saytına istinadən xəbər verir ki, bu sözləri Müdafiə və təhlükəsizlik daimi parlament komissiyasının rəhbəri, hakim “Mənim addımım” blokundan olan deputat Andranik Köçəryan 29 oktyabr tarixində keçirilən ənənəvi brifinqlər zamanı Ermənistan Milli Məclisində Ermənistanın keçmiş baş naziri Vazgen Manukyanın açıqlamasını şərh edərkən deyib.

Onun sözlərinə görə, belə bir müraciət 27 oktyabrda edildiyi üçün bu daha təhlükəlidir. Qeyd edək ki, 1999-cu ilin bu günü Ermənistan parlamentində terror aktı baş verib və görünür, Andranik Köçəryan hələ də bunun təsiri, qorxusu altındadır. Köçəryan onu da əlavə edib ki, xalq tərəfindən qəbul edilməyən qüvvələr sakitləşə bilmir.

Xatırladaq ki, keçmiş baş nazir və keçmiş müdafiə naziri Vazgen Manukyan hökuməti istefaya və hakimiyyəti orduya təhvil verməyə çağırıb. Siyasətçinin açıqlamasında deyilir ki, indiki dövr Ermənistan üçün “tarixin biabırçı və dağıdıcı səhifələrindən biridir və yalnız Qarabağ deyil, eyni zamanda xalqın məskunlaşdığı Ermənistan da təhlükə altındadır”. Onu da qeyd edək ki, Ermənistan Müdafiə Nazirliyi və Silahlı Qüvvələrin Baş Qərargahı Manukyanın açıqlamasına reaksiya göstərib. Birgə açıqlamalarında “bəzi siyasi dairələrin siyasi rəhbərlik və Silahlı Qüvvələr arasında nifaq salmaq” cəhdləri kimi qınanılıb.

***İnam Hacıyev***

## Ermənistanda koronavirus idarəolunmaz həddə çatdı



Ermənistanda koronavirusa yoluxanların sayı 2383 nəfər artıb. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, son sutka ərzində bu ölkədə virus səbəbi ilə 31 nəfər həyatını itirib.

Məlumata görə, Ermənistanda 29 oktyabr tarixinə koronavirusa yoluxanların sayı artaraq artıq 85 034 nəfərə çatıb. Virusdan ölənlərin ümumi sayı 1626 nəfərə çatıb.

Xatırladaq ki, əhali sayına nisbətdə koronavirusa yoluxma və ölüm halları ən təhlükəli göstərici hesab olunur. Hər gün yoluxma sayında əhəmiyyətli dərəcədə artım müşahidə edilir ki, bu da Ermənistanda koronavirusun idarəedilməz həddə çatdığını təsdiq edir.

# Terrorçu erməni keşişəri: monoməzhəb erməni faşizmi din pərdəsində



XVIII əsrin əvvəllərindən etibarən Çar Rusiyası Cənubi Qafqazda müstəmləkəçilik planlarını həyata keçirmək məqsədilə erməni amilindən məharətlə istifadə edib. Ermənilər də Rusiyanın İran və Türkiyə ilə apardığı müharibələr zamanı işğal etdiyi ərazilərdə sonralar öz dövlətlərini yaratmağa nail olublar. Bu işdə isə onlara açıq-aşkar dəstək verən erməni kilsəsi olub.Bu faktlar barədə kifayət qədər dəlillərə, sübutlara əsaslanan yazılar, məqalələr yer alıb.

Bu gün də hər zaman olduğu kimi, erməni kilsəsi daim türklərə, azərbaycanlılara qarşı amansız çağırışlar edir, xüsusilə, günahsız insanların qanlarının tökülməsinə açıq-aşkar "xeyir-dualarını" verir. Necə ki, birinci Qarabağ müharibəsində bütün ermənilərin katoikosu Vazgen azərbaycanlıların qanlarını tökməyə yollanan erməni faşistlərinə, terrorçularına "dualar" edirdi...



### Ermənilər Allahın hansı əmrlərini heçə sayırlar?

Bu arada onu da xatırlatmaq olar ki, din və kilsə, xüsusilə xristianlıq pərdəsi altında qətliamlara imza atan, bunun üçün külli miqdarda vəsaitlər xərcləyən ermənilərin Qriqorian məzhəbli apostol kilsəsinin xaç dünyasının digər məzhəbləri tərəfindən lənətlənməsi faktları da mövcuddur. Misal üçün, bu gün və hər zaman əllərində silah dinc insanlara atəş açmaq üçün hazır olduqlarını təsdiq edən reallıqlar çoxsaylı fotolarda sübutunu tapır. Və belə olan halda isbat edilir ki, erməni "din adamları" müqəddəs İncildəki "Sülh istəyənlər və sülh yaradanlar bizdən olanlardır, çünki onlara Tanrı övladları deyəcəklər" (Matfeydən. 5:9), yaxud "Öldürmə!" kimi Allah əmrlərini heçə sayırlar. Çünki bu kəlamlar onlara sərf etmir - istilaları, işğalları, müsəlman və türk qanlarını axıtmaları, terror törətmələri baxımından...



### Xristian dünyası tərəfindən lənətlənmiş, anemafamaya məruz qalmış Qriqoriançılıq monoməzhəbi



Beləliklə, fakt həm də budur ki, ermənilərin apostol kilsələri hələ 451-ci ildə Bizansda lənətlənmişdi. Yəni anefamaya məruz qalmışdı. Bir halda ki, Qriqorian məzhəbliləri lənətlənmiş kilsə damğasını daşıyırlarsa, bu zaman erməni keşişlərinin nəyə görə bu qədər qaniçənlik obrazında fəaliyyət göstərmələrinə də kifayət qədər aydınlıq gəlməkdədir. Məhz bugünlərdə Azərbaycanın dinc, müharibəyə aidiyyatı olmayan insanlarına qarşı terror siyasəti yürüdən Ermənistana "xeyir-dua" verən erməni keşişləri özlərinin terrorçuluq xislətlərini açığa çıxarmaqda davam edirlər. Bir dində, məzhəbdə ki, yalnız ermənilər vardır, bir məzhəb ki, ermənilərdən başqa heç bir xristian dünyasında qəbul olunmur, deməк ki, mnoetnik Ermənistanın özü kimi, elə erməni kilsəsi də monoməzhəbçiliyə xidmət edir. Yəqin ki, gec də olsa, bu gün xristianlıq pərdəsi altında "məzlum" obrazı yaradan erməni keçiçlərinin sonradan əllərində silah dinc insanlara qarşı terror törətmələri faktını xristian dünyasının digər təmsilçiləri də anlayacaqlar. Ən azından buna ümid etmək olar.



***Rövşən RƏSULOV***

*P.S. Yeri gəlmişkən, hər il İsraildə, İsa Məsihin doğulduğu mağarada ibadət etmək üçün yığışan müxtəlif məzhəbli xristian təbəqələri ayrıca monoməzhəb kimi təqdim olunan ermənilərin hücmlarına məruz qalırlar. Hətta bu gün ortodoks, yəni pravoslav yunanlara qarşı amansızlıq, dözümsüzlük sərgiləyən erməni keişləri həmin müqəddəs yerdə qan axıdırlar. Ancaq bu gün yunanlar nədənsə, ermənilərə qahmar çıxırlar, eləcə də digər xristan məzhəblərinin təmislçiləri. Amma unudurlar ki, bi gün erməni xisləti onları da haqlayacaq, bax onda çox gec olacaq...*

# FOTOFAKT: Baydendən Trampa ermənipərəst çağırış


BIDEN HARRIS

FOR IMMEDIATE RELEASE
October 28, 2020

Statement by Vice President Joe Biden on Nagorno-Karabakh

Following the collapse of the ceasefire announced by Secretary of State Pompeo on October 25, a large-scale humanitarian disaster is looming for the people of Nagorno-Karabakh, who have already suffered too much and need to have their security protected. After a month of fighting, it is long past time for President Trump to directly engage the leaders of Armenia, Azerbaijan, and Turkey to push for immediate de-escalation and stop the advance of Azerbaijani troops into Nagorno-Karabakh. While he brags about his deal-making skills at campaign rallies, Trump has yet to get involved personally to stop this war. The administration must fully implement and not waive requirements under section 907 of the Freedom Support Act to stop the flow of military equipment to Azerbaijan, and call on Turkey and Russia to stop fueling the conflict with the supply of weapons and, in the case of Turkey, mercenaries. The United States should be leading a diplomatic effort to end the fighting, together with our European partners, and push for international humanitarian assistance to end the suffering; under my administration that is exactly what we will do.

###

ABŞ-da prezident seçkiləri ərəfəsində demokratlardan əsas namizəd olan Co Bayden aşkar ermənipərəst mövqeyini ortaya qoymaqla ölkə rəhbərliyinə müraciət edib. SİA xəbər verir ki, Amerikanın erməni lobbisindən ciddi dəstək alan Bayden Tramp administrasiyasına göndərdiyi məktubunda Dağlıq Qarabağda Azərbaycanın haqlı və ədalətli mübarizəsinə qarşı çıxdığını gizlətməyib və qeyd edib ki, Azərbaycan Ordusunun Qarabağda irəliləyişinin qarşısı alınmalıdır. "Azərbaycan ordusunun Qarabağda irəliləyişinin qarşısını almağa, 907-ci düzəlişin tam icrasını təmin etməyə və Azərbaycana hərbi texnikanın satışlarını dayandırmağa çağırıram", deyə yazılan məktubda ermənipərəst namizəd bununla ermənilərdən dəstək alacağına ümid edib. Bu arada, ABŞ-da yaşayan və fəaliyyət göstərən azərbaycanlılar və güclü yəhudi lobbisi, həmçinin, türklər Baydenin namizədliyinə qarşıdırlar. Kifayət qədər ehtimal olunur ki, onlar məhz Donald Trampa səs verəcəklər. Əbəs deyil ki, Trampın seçki kampaniyaları uğurlu keçirilib və Baydendən fərqli olaraq onunla görüşə on minlərlə insanlar can atırlar. Baydenin seçki kampaniyasında və seçicilərlə görüşlərində eyni hal müşahidə olunmur.

Xatırladaq ki, Donald Tramp da daha əvvəlki prezidentlər kimi, müxtəlif vaxtlardakı çıxış və müraciətlərində ermənilərin gözlədikləri "soyqırımı" ifadəsini işlətməyərək, onları pəjmürdə edib.

***Rövşən RƏSULOV***

# Tural Gəncəliyevdən kanadalı senatora: "Azərbaycan xalqından üzr istəyin"



Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri, Milli Məclisin Azərbaycan-Kanada Parlamentlərarası dostluq qrupunun rəhbəri Tural Gəncəliyev Kanada Parlamentinin senatoru Leo Housakos və Ontario yerli parlamentinin üzvü Gurratan Singhə həm video, həm də yazılı formata etirazını bildirib. İcmadan SİA-ya verilən məlumatda bildirilir ki, son günlər adıçəkilən şəxslər Ermənistanın Azərbaycana qarşı təcavüzünə və işğalını dəstəkləyən bəyanatlar səsləndiriblər. Tural Gəncəliyev həmin şəxslərin və bütün Kanada Parlamentinin üzvlərinin diqqətinə münaqişə bölgəsindən uzaqda yerləşən Azərbaycanın yaşayış məntəqələrinə Ermənistan tərəfindən atılan qadağan olunmuş raketlər nəticəsində 100-ə yaxın mülki əhalinin öldürülməsi və onların 10 nəfərinin azyaşlı körpə olması faktını çatdırıb.

İcma rəhbəri onlara bildirib ki, seçicilərinizin hüquqlarını qorumaq əvəzinə sizə verilən tribunadan erməni lobbisinin ruporu kimi çıxış etməyiniz seçicilərinizə hörmətsizlik kimi qiymətləndirilir. "Siz bu hərəkətlərinizlə Ermənistan silahlı qüvvələrinin Azərbaycan mülki vətəndaşlarına qarşı törədilən müharibə cinayətlərinin müdafiəçisinə çevrilirsiniz". Müraciətdə Tural Gəncəliyev Kanadanın Ontario və Quebec bölgələrinin əhalisinə səslənərək bildirir ki, bu gün sizi parlamentdə təmsil edən şəxslər günahsız insanların ölümlərinə bütün insan haqqlarını kobud şəkildə pozaraq haqq qazandırır. Bu siyasətçilər doğrudanmı sizin dəstəyinizə layiqdirlər?

Azərbaycan-Kanada parlamentlərarası dostluq qrupunun rəhbəri T. Gəncəliyev, Singh və Housakosun xalqımıza qarşı qərəzli mövqelərini kəskin şəkildə qınamaqla yanaşı, onları Azərbaycan xalqından üzr istəməyə çağırıb.

# Ermənistan silahlı birləşmələrinin Bərdəyə hücumu Gürcüstan mətbuatının diqqətindədir


Азербайджане заявил о гибели 19 человек в результате обстрела Барды

28 Октября, 2020 15:16

Число погибших в результате обстрела кассетными бомбами района вблизи города Барда, совершенного вооруженными силами Армении, возросло до 19 человек, более 60 человек получили ранения.

Об этом сообщает Генеральная прокуратура Азербайджана.

По данным ведомства, сильно пострадала гражданская инфраструктура и автомобили.

-14: 46-

Ermənistan silahlı birləşmələrinin Bərdəyə xain hücumu və dinc əhalini hədəfə alması Gürcüstan mətbuatının diqqət mərkəzindədir. SİA xəbər verir iki, bu ölkənin "report.ge", "gaxa.ge", "24news.ge", "aktual.ge" informasiya portalları erməni terrorçularının humanitar atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycanın Bərdə şəhərini qadağan olunmuş silahlardan atəşə tutması barədə xəbərlər yayıb. Azərbaycan, rus, ingilis və gürcü dillərində yayılan xəbərlədə oktyabrın 28-də Bərdədə dinc sakinlərin erməni silahlı birləşmələri tərəfindən yenidən raket atəşinə tutulduğu, dinc sakinlərin sıx olduğu əraziyə beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalardan istifadə edilməklə zərbələr endirildiyi bildirilib. Diqqətə çatdırılıb ki, nəticədə 20-dən çox dinc sakin həlak olub, 70-ə yaxın mülki şəxs yaralanıb. Şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə ciddi ziyan dəyib.

# Azərbaycanda koronavirusa yoluxanların sayı 1000-i keçdi

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1015 yeni yoluxma faktı qeydə alınıb, 483 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 9 nəfər vəfat edib. Azərbaycanda indiyədək ümumilikdə 53 152 nəfər koronavirus infeksiyasına yoluxub, onlardan 42 516 nəfər müalicə olunaraq sağalıb, 708 nəfər vəfat edib, aktiv xəstə sayı 10 636 nəfərdir. Ölkədə son sutka ərzində 11 813, hazırkı dövrədək isə 1 331 287 test aparılıb.



# Zəfər tariximiz işğal gününü əvəzləyir

***Müharibənin od-alovu hər bir insanda vahimə yaradır. Müharibə böyük itki, təlafatdır. Dünyanın hansısa bir ölkəsinin od-lu-alovlu olmasını kimsə istəməz. Çünki Tanrının yaratdığı bütün varlıqlar sülh, əmin-amanlıq içində yaşamaq, səmasının aydın, torpağının rahat nəfəsini duymaq istər. Amma əfsuslar olsun ki, bu gün qan tökülmüş, şəhid qanına suvarılmış torpağa ayaq qoyuruq.***

Azərbaycan müharibənin ağrı-acısını zaman-zaman yaşamış, bu gün də yaşayır. Şəhid qanının nə olduğunu hər birimiz yaxşı bilirik. Bu müqəddəs məfhum qarşısında məsuliyyətliyik. Vətəni qorumaq məsuliyyəti qanımızda, canımızdadır. Vətən çağırır, deyəndə igid oğul və qızlarımız müharibənin, od-alovun içinə atılırlar. Bu gün Vətən müharibəsində də bunu bir daha görürük. Azərbaycan Bayrağını işğal altında olan torpaqlarımızda dalğalandırmaqdan şərəfli nə ola bilər ki? Çünki bayraq qürurumuz, iftixar hissimizdir. Bütün zirvələrdən, yüksəkliklərdən uca olan dövlət bayrağımız hər bir insanın vətəndaşlıq qürurudur.

Azərbaycan Respublikasının Konstitusiyasında qeyd olunduğu kimi, "Azərbaycan Respublikasının dövlət rəmzləri - Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir". Dövlətçilik rəmzləri sırasında yer alan Dövlət Bayrağı siyasi-ideoloji və mənəvi baxımdan əhəmiyyətlidir. Ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir. "Bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir", - deyən Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində Azərbaycanın hər bir yerində dalğalanan Dövlət Bayrağının Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra işğal altında olan torpaqlarda qaldırılacağına əminliyini bildirmişdi: "Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndində, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq". Artıq o zaman yetişib. Azərbaycan bayrağı işğaldan azad olunan torpaqlarımıza sancılır. Oktyabrın 29-u Zəngilanın işğal günüdür. Bu gün biz Zəngilanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsindən 27 il ötür, deyə yazacaqdıq. Amma bu gün işğal tarixindən deyil, Zəngilan şəhərinə sancılan Azərbaycan bayrağının dalğalanmasından yazırıq. Uğur və qələbəmizdən yazırıq. 1993-cü ildə işğal edilən Zəngilan şəhəri və rayonun bir neçə kəndi erməni işğalından azad edildi. Yüzlərlə şəhid verən Zəngilan işğala məruz qalan ən sonuncu rayon olub. Qubadlı və Cəbrayılın işğalı nəticəsində, mühasirəyə düşən rayon əhalisi çıxış yolunu Araz çayından İran ərazisinə keçməkdə gördü. Əkstəqdirdə, ikinci bir Xocalı Soyqırımının baş verməsi qaçılmaz olacaqdı.

**"BİZ DÜŞMƏNİ TORPAQLARIMIZDAN QOVACAĞIQ, SONA QƏDƏR QOVACAĞIQ. QARABAĞ BİZİMDİR! QARABAĞ AZƏRBAYCANDIR!"**

Vurğulamaq yerinə düşər ki, Zəngilan inzibati rayon kimi, 1930-cu ildə təşkil edilib. Şimaldan Qubadlı, şərqdən Cəbrayıl, cənubdan İran İslam Respublikası, qərbdən Ermənistanla həmsərhəddir. Zəngilan Birinci Qarabağ müharibəsində 188 şəhid verib, bugünədək rayonun 44 sakini itkin düşmüş sayılır. Bakı-Culfa-Naxçıvan dəmiryolunun üzərində yerləşən bu rayon mühüm strateji əhəmiyyətə malikdir. Ərazisi 707 kvadrat km, əhalisi isə 35 min nəfərdən çox olub. Rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı - üzümçülük, tütünçülük və heyvandarlıq təşkil edib. İşğal olunmazdan əvvəl, bir şəhər, bir qəsəbə və 83 kənddən ibarət olan Zəngilanda 9 məktəbəqədər müəssisə, 19 ibtidai məktəb, 15 orta məktəb, bir texniki-peşə və musiqi məktəbi, 35 kitabxana, 8 mədəniyyət evi, 23 klub müəssisəsi və 22 kinoqurğu var idi.

Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan edirdi ki, biz heç vaxt indiki vəziyyətlə barışmayacağıq, ərazi bütövlüyümüzü istənilən yolla bərpa edəcəyik, öz ərazilərimizi işğalçılardan təmizləyəcəyik və orada yeni həyat yaradacağıq. Dövlət başçısının göstərdiyi qətiyyətli mövqe, gündəngünə hərtərəfli formalaşan qüdrətli Azərbaycan Ordusu və xalqımızın mübariz ruhu işğal olunmuş torpaqlarımızı erməni işğalından azad edir. Cənubi Qafqazın lider dövləti olan Azərbaycan öz torpaqlarını qarış-qarış işğaldan azad edir və yaxın zamanda işğaldan azad olunacaq torpaqlarımızda Azərbaycan bayrağı dalğalanacaq. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi "Biz düşməni torpaqlarımızdan qovacağıq, sona qədər qovacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

***Zümrüd BAYRAMOVA***

# Seyfəddin Əliyev: "Azərbaycan haqq yolundadır və öz qanuni ərazilərini geri qaytaracaq!"



***"Bu gün müzəffər Azərbaycan Ordusu işğal olunmuş torpaqlarımızı yağı tapdağından azad edir, hər gün yeni bir müjdə ilə xalqımızın qəlbini iftixar, qürur hissi ilə doldurur. Ali Baş Komandan İlham Əliyevin qətiyyətindən güc alan Azərbaycan Ordusu cəbhənin bütün istiqamətlərində düşməni darmadağın edərək 30 il əsirlikdə qalan torpaqlarımızı azadlığa qovuşdurur".***

Bunu YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev "SƏS" açıqlamasında bildirib. S.Əliyev vurğulayıb ki, Prezident İlham Əliyev oktyabrın 26-da xalqa müraciətində Ermənistanın havadarlarına bir daha xəbərdarlıq mesajı göndərib: "Sizə deyirəm, bu saxta dövləti xilas etmək istəyirsinizsə, deyin ki, çıxsın. Bir sözünüzlə çıxa bilər, bir sözünüzlə. Yaxşı, onlara maliyyə, iqtisadi, hərbi, siyasi dəstək verilməsə, Ermənistan ayaq üstə dura bilərmi? Yox!".

S.Əliyev onu da bildirib ki, bu gün Ali Baş Komandanımız İlham Əliyev cənablarının xalqa etdiyi müraciətləri, müsahibələri, canlı debatları və çıxışları ilə səlis natiqlik bacarıqları və diplomatik səriştəsi ilə ölkəmizin haqlı mövqeyini dünyaya nümayiş etdirməklə Vətən savaşında Azərbaycanın haqlı olduğunu bir daha göstərməkdədir: "Azərbaycanın uğurları, qələbələri döyüş meydanı ilə yekunlaşmır. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev işğalçı Ermənistanı siyasi-diplomatik sferada da məğlubiyyətə uğradır".

"Ali Baş Komandanın rəhbərliyi ilə bu gün yeni tarix yazıldı", -deyən YAP Masallı rayon təşkilatının sədri onu da bildirib ki, Azərbaycan Ordusunun potensialı göz önündədir: "Bu gün real faktordur ki, inkişaf etmiş bəzi ölkələrin hərbi mütəxəssisləri də artıq Azərbaycanın təcrübəsini öyrənir. Ali baş Komandanımızın rəhbərliyi ilə bu gün Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü Silahlı Qüvvələrinə çevrilib. Məhz Ulu Öndər Heydər Əliyev tərəfindən Azərbaycanda ordu quruculuğu istiqamətində zəruri addımlar atılıb. Bu gün isə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz regionun və dünyanın güclü orduları sırasına yüksəlib".

S.Əliyev, həmçini qeyd edib ki, Azərbaycan öz tarixi, əzəli-əbədi torpaqlarında bütün beynəlxalq təşkilatlar tərəfindən tanınan əraziləri uğrunda mübarizə aparır: "BMT Nizamnaməsinin 51-ci maddəsinə əsasən, BMT üzvü olan ölkə silahlı hücuma məruz qaldığı halda özünümüdafiə hüququna malikdir. BMT-nin Təhlükəsizlik Şurasının icra olunmayan 4 qətnaməsinə əsasən Ermənistan silahlı qüvvələri birmənalı şəkildə işğal olunmuş torpaqlarımızı tərk etməlidir. Azərbaycanın atdığı hər bir addım beynəlxalq hüquq norma və prinsiplərinə əsaslanır. Azərbaycan Ordusu heç vaxt mülki obyektləri hədəf almır,dinc sakinlərə zərər vermir".

"Hərtərəfli məğlubiyyətə uğrayan işğalçı Ermənistan hakimiyyəti isə məğlubiyyətini ört-basır etmək üçün ciddi təxribatlara əl atır",- deyən S.Əliyev vurğulayıb ki, Ermənistanın ölkəmizə qarşı təxribat hücumları, hiylələri, məkri Azərbaycanı öz yolundan döndərə bilməz: "Dövlət başçımız oktyabrın 26-da xalqa müraciətində də bir daha bildiridi ki, Azərbaycan xalqı bu haqsızlığı unutmayacaq: "Biz Ermənistandan fərqli olaraq heç kimdən kömək istəmirik. Mane olmasınlar və Azərbaycan xalqının səbri ilə oynamasınlar. Sabah bu müharibə qurtaracaq, biz istədiyimizə nail olacağıq. Bəs bizim münasibətlərimiz necə olacaq? Azərbaycan xalqı bu haqsızlığı unudacaqmı? Unutmayacaq. Bunu bir fikirləşsinlər. Azərbaycan indi o dövlət deyil ki, onun maraqlarını kimsə kənara qoya bilər. Xeyr. Gün gələcək, xahişlərlə, təkliflərlə, əməkdaşlıq təklifləri ilə gələcəklər. Bəs bizə hansı üzlə baxacaqlar?" - deyə Ali Baş Komandanımız bildirib".

"Artıq dünya birliyi Azərbaycanın gücünü qəbul edir və anlayır ki, haqq, ədalət uğrunda savaşa qalxan ölkə öz ərazi bütövlüyünü qısa müddətdə bərpa edəcək",- deyən YAP Masallı rayon təşkilatının sədri S.Əliyev bildirib ki, Ali Baş Komandanımız, ölkə Prezidenti İlham Əliyev cənabları müraciətində də bildirib ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək: "Biz öz torpağımızda vuruşuruq. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, tarixi ədalət bizim tərəfimizdədir. Mən bu günlər ərzində müntəzəm olaraq Azərbaycan xalqına müraciət edirəm, öz fikirlərimi bildirirəm, uğurlar haqqında məlumat verirəm. Bu gün də Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da biz haqq yolumuzdan dönməyəcəyik! Heç bir qüvvə bizim iradəmizə təsir edə bilməz. Düşməni sona qədər qovacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik!"

S.Əliyev sonda onu da bildirib ki, "bu gün düşməni qova-qova artıq dünya birliyi Azərbaycanın gücünü qəbul edir və anlayır ki, haqq, ədalət uğrunda savaşa qalxan ölkə öz ərazi bütövlüyünü qısa müddətdə bərpa edəcək. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır!".

***RƏFİQƏ HÜSEYNOVA***



# "Dinc insanların hədəfə alınması Ermənistanın faşist mahiyyətini ortaya qoyur"

"Ermənistan tərəfdən azyaşlı uşaqların hərbi əməliyyatlara cəlb edilməsi beynəlxalq uşaq hüquqları konvensiyasının ciddi şəkildə pozulması deməkdir. Mənfur düşmən bu üsulla cəbhə xəttində uşaqların ölümünə yol açaraq sonradan bu məsələni Azərbaycan tərəfinin üzərinə atmaq kimi məkrli planlar üzərində işləyir". Bunu SİA-ya açıqlamasında "Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova deyib.

Onun sözlərinə görə, Paşinyan hökumətinin bu çirkin planları vaxtında ifşa edilməli, faktlar toplanılaraq müvafiq beynəlxalq qurumlara təqdim edilməlidir: "Azyaşlıların əllərinə silah verib onların köməksiz hədəfə çevrilməsinə imkan yaratmaq özü ən dəhşətli müharibə cinayətlərindən sayılır. Paşinyan və Ermənistan hökumətinin bu zamana qədər onlarla azərbaycanlı uşaqların ölümünə səbəb olduğunu bir kimsə nəzərə alsaq, erməni uşaqlarının cəbhəyə göndərilməsində təəccüblü bir şey yoxdur. Ermənistan cəbhə xəttindən uzaqda yerləşən Azərbaycanın şəhər və kəndlərini hədəfə alır, dinc sakinləri bombalayır. Bərdəyə Ermənistanın atdığı raket zərbəsi nəticəsində 21 dinc sakin həyatını itirdi, 70-ə yaxın insan isə yaralandı. Bu Ermənistnın vəhşiliyidir. Dinc insanların hədəfə alınması Ermənistan hakimiyyətinin faşist mahiyyətini bir daha ortaya qoyur. Belə əməllərə yol verən hərbi cinayətkarlar mütləq şəkildə beynəlxalq səviyyədə məsuliyyətə cəlb olunaraq Haaqa Tribunalı qarşısında dayanmalıdır. Azərbaycanın bu istiqamətdə kifayət qədər faktları mövcuddur".

***Gülyana***

# Getməyin vaxtı çatmadımı, Paşinyan?



***Azərbaycan Ordusunun Ali Baş Komandanının rəhbərliyi ilə apardığı uğurlu əməliyyatlar işğalçı ölkəni çətin duruma, hətta iflic vəziyyətinə salıb. Düşmənin canlı qüvvə, hərbi texnika, silah-sursat itgisi, bununla yanaşı, külli miqdarda maddi ziyanı təkzibedilməz faktdır. Bu faktı təkcə biz, dünya ictimaiyyəti deyil, erməni cəmiyyəti də yaxşı başa düşür və etiraf edənlər də az deyil. Artıq Ermənistana məxsus mətbuat səhifələrində belə etiraflara rast gəlinir.***

"Azərbaycan tərəfindən döyüş əməliyyatları barədə nümayiş etdirilən kadrlar istənilən qədər təkzib edilə bilər, amma Ermənistan tərəfi üçün həqiqət, reallıq faciəlidir. Artıq ələ keçirilən torpaqların bir hissəsi və çoxlu erməni hərbçiləri itirilib", kimi etirafları misal gətirmək olar ki, bu da özülüyündə Ermənistan tərəfinin vəziyyəti anladığı anlamına gəlir.

Bəli, düşmən tərəfinin hər zaman yalan danışdığı göz qabağındadır və hardasa bu başadüşüləndir. Çünki, daxili auditoriyadan məğlubiyyətlərini gizlətməklə nəyə isə bundan sonra nail olmağa çalışılır. Ona görə ki, belə faktları gizlətməklə hakimiyyət dövrünü uzatmaq fikrindədir. İtkilərini də azaltmağa, gizlətməyə çalışması bu baxımdan anlaşılandır və müharibədə, ümumiyyətlə, həmişə belə yalanlara rast gəlinir. Amma nəzərə alaq ki, hər şeyin də bir həddi var və bu həddən, qırmızı xətdən keçəndə mənzərə çox eybəcər görünür, necə ki, Ermənistan bu eybəcərlikləri ilə tamam fərqli şəkildə ikrah doğuran mənzərə yaradıb. Bu ikrah doğuran mənzərə də öz vətəndaşlarının gözündən əlbəttə ki, yayına bilməz. İndi Ermənistanın ən adi vətəndaşları belə görür və başa düşür ki, bu ölkənin baş naziri bir-birinin ardınca yalanlar danışır, dezinformasiyalar yayır, məlumatları təhrif edir. İlk növbədə o öz xalqını, sonra isə dünya ictimaiyyətini aldadır.

Gəncəyə, Bərdəyə, Tərtərə, Mingəçevirə və cəbhə xəttindən, münaqişə zonasından uzaq olan bir sıra başqa yaşayış məntəqələrinə, dinc, mülki əhaliyə raket zərbələri endirməsini də utanmadan təkzib edir Ermənistan tərəfi, özü də ən səlahiyyətlilərinin dili ilə. Bu artıq yalançılıqdan da başqa, həm utanmazlıqdır, həm simasızlıqdır, həm də bütün əksiklikləri özündə birləşdirən yaramazlıq. Düşmən nə qədər simasız, üzsüz, həyasız olmalıdır ki, qarşı tərəfə öz şəhərlərini özünün vurduğunu iddia eləsin. Bu qədər də hədsizlikmi olar?

Ermənistan tərəfi özünün min nəfərdən bir az artıq canlı qüvvə itgisini bəyan etdiyi halda Azərbaycan tərəfinin yedd, bəzən də on min hərbçisinin məhv edildiyini iddia edir. Utanmazlıq dərəcəsinə baxın. Kadrlardan görünənlər başqa söz deyir. Əksinə, ermənilərin dəfələrlə artıq itgi verdiyi məntiqidir axı. Digər tərəfdən də sual ortaya çıxa bilər ki, ay Paşinyan, ay Azərbaycan əsgərinin daha çox sayda məhv edildiyini deyən Ermənistan hakimiyyətinin səlahiyyətliləri, əgər sizin dedikləriniz kimidirsə, niyə hamıya yalvarırsız ki, müharibə dayandırılsın? Əgər erməni əsgəri qarşı tərəfdən daha çox itgi verdirirsə, niyə Ermənistan hakimiyyəti əl-ayağa düşüb atəşkəs yalvarışları edir? Bu məntiqi də deyil axı.

Cənab Prezident İlham Əliyev İnterfaks-a verdiyi müsahibəsində çox məntiqi bir aydınlıq gətirdi bu statistik rəqəmlərə. Ali Baş Komandan bildirdi ki, əgər məhv ediliş hərbi texnikanın, hərbi sursatın sayına nəzər salsaq, aydın olur ki, erməni tərəfinin itgisi göstəriləndən dəfələrlə çoxdur. Ölkə başçımız diqqətə çatdırdı ki, əgər yüzlərlə məhv edilən, qənimət kimi ələ keçirilən hərbi texnika varsa, bu texnikaları idarə edən, həmin texnikalara yaxın olan hərbi heyət də olmalıdırsa, deməli, Ermənistan tərəfinin yüzlərlə hərbi texnika itgisinin müqabilində canlı qüvvə itgisi minlərlədir və bu rəqəm düşmənin rəsmi statistikasından dəfələrlə böyükdür. Bir sözlə, Cənab Prezident işğalçı ölkənin növbəti yalanlarının da üstünü açdı və düşmənin bəyan etdiklərinin yalan, dezinformasiya olduğunu isbat etdi.

Ermənistan hakimiyyətinin yalan ifadələrlə xalqını aldatmağa çalışan səlahiyyətliləri, başda elə Nikol özü olmaqla hamısı bilməlidir ki, erməni xalqı, onların aldatmaq istədikləri vətəndaşları artıq həqiqətləri bilir, qəbul edirlər. Bilirlər ki, itkiləri böyükdür. Həm ərazi itgiləri var, həm də dəfələrlə çox insan itgilər. Bilirlər ki, itgiləri hökumətin söylədiklərindən çoxdur. Ermənistan, həqiqəti uzun müddət gizlətmək üçün çox kiçik bir ölkədir və deməli, bu yalanların üstünün açılması üçün kiçicik vaxt lazım idi ki, bu vaxt da bitdi. Elə bununla Paşinyanın da xəyalları bitdi, arzuları, ümidləri, bütün bunları da ona bəxş edən hakimiyyəti bitdi demək olar.

Erməinstan cəmiyyətində bütün ərazi və insan itkiləri üçün baş nazir Nikol Paşinyanın birbaşa şəxsi məsuliyyət daşıması barədə düşünməyin vaxtı gəldi. Bəli, o, bir zamanlar Sorosun "sehrli çubuğu"nun gücü ilə hakimiyyətə gətirilən, həttə demokrat adı da verilən bir adam idi və son zamanlar adı qulağına yaman dəymişdi deyə ültimatum dili ilə də danışırdı. Ancaq Paşinyana "sehirli çubuğun" bağışladığı məqamlar belə etdiyi faciəvi səhvləri, ölkəsini indiki acınacaqlı duruma salması faktını heç bir şəkildə doğrultmur. Getməyin vaxtı çatmadımı, Paşinyan? Küçədən gələnin küçəyə də qayıtmaq zamanı yetişmədimi? Çox güman ki, yetişdi. Özü də tək sənin yox, elə səninlə gələnlərin də. Sənin kimi hakimiyyət acı olan komandanın, Azərbaycan torpaqlarına yerləşdirilən terrorçularının da getmək vaxtı yetişdi. İndi onsuz da "iti qovan" Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə erməni terrirçularını, işğalçılarını işğal etdikləri torpaqlardan, Azərbaycan torpaqlarından qovur və bir növ, öz xoşuna getməyənlərinizin getməyini "reallaşdırır". Bu reallığı yaradan Cənab Prezident İlham Əliyevin siyasi iradəsi, qətiyyəti, gücü, idarəçilik, liderlik qabiliyyətləri, uzaqgörənliyi, rəşadətili Azərbaycan Ordusunun fədakarlığı və Azərbaycan xalqının öz Ali Baş Komandanı ilə birliyi, həmrəyliyi oldu. Bu birliyin, bu rəşadətin, bu siyasi iradənin, qətiyyətin fonunda Nikol Paşinyan da, onun tör töküntüləri də, işğal olunmuş ərazilərimizdəki işğalçılar, terrorçular da getməyə bilməz.

***İnam Hacıyev***

## VZQLYAD: "Bu, beynəlxalq cinayətdir"

***Rus ekspert: "Cəbhədən uzaqdakı şəhərlərə qarşı uzun mənzilli çoxsaylı raket sistemləri ilə zərbələr edilməsinin əsaslandırılması sadəcə mümkün deyil"***



***"Vzqlyad" qəzeti Qarabağda baş verənlərlə bağlı yazı dərc edib. Həmin yazını oxucularımıza təqdim edirik. Azərbaycan siyasətçiləri beynəlxalq ictimai rəyin Qarabağla bağlı mübahisələrdə ənənəvi olaraq həmişə İrəvana simpatiya bəslədiyini deyirlər. Ancaq bu beynəlxalq rəyi görünür, Azərbaycanın Bərdə şəhərinə atılan "Smerc" raketlərini silkələyə bildi. 21 dinc vətəndaşın öldüyü bombardman hətta BMT Baş katibi tərəfindən qınandı.***

Azərbaycan rəsmiləri erməni tərəfinin dinc şəhərə zərbə vurmaq üçün qadağan olunmuş "Smerç" MLRS raketindən istifadə etdiyini nümayiş etdirib. Prezident İlham Əliyev bununla bağlı müraciətində deyib: "Bir neçə saat əvvəl Bərdəyə bir neçə raket atıldı, nəticədə 21 mülki insan öldü və 70-dən çox mülki yaralandı. Ölənlərin sayı arta bilər". Türkiyə rəsmiləri artıq Bərdəyə bomba atılmasını erməni tərəfinin hərbi cinayəti olduğunu bəyan edib.

Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Şuşan Stepanyan Azərbaycanın açıqlamasını "əsassız və yalan" adlandırdı. Ancaq axşam dinc bir şəhərə zərbə endirilməsi faktı BMT tərəfindən təsdiqləndi. Baş katibin mətbu nümayəndəsi Stepan Dujarrik "Münaqişədən zərər görən Bərdə şəhərinə endirilən zərbələr də daxil olmaqla, bütün yaşayış məntəqələrinə edilən hücumları ən sərt şəkildə qınayırıq"- dedi.

Göründüyü kimi Bərdədəki bombardman BMT Baş katibini qurban sayı ilə şoka salıb. Halbuki, əvvəllər də Azərbaycanın dinc şəhərlərinin (məsələn, Gəncə və Tərtərin) bombalandığı barədə məlumatlar var idi.

Hərbi ekspert Pavel Felgenhauer qəzetə bildirib ki, ermənilərin "Skad-B" (R-17) raketlərindən istifadə etdikləri hallar var: "Ancaq beynəlxalq konvensiyalara düşməmək üçün hərbi hədəflərə atəş açdıqlarını bildirdilər. Konvensiyalar mülki əhalini hədəfə almağı qadağan edir, ancaq "təsadüfən" vurursunuzsa, bu məhkəmə məsələsi deyil". Ekspert deyir ki, Qarabağdan əhalinin çoxu Ermənistana aparılıb: "Demək olar ki, hamısı qadın və uşaqlar. Müəyyən bir kişi hissəsi qaldı. Yəni, orada çox az mülki əhali var. Qarabağ əvvəllər də heç vaxt sıx məskunlaşmamışdı və indi 60-70% oradan çıxarıldı. Azərbaycanda əhali cəbhə bölgəsindən çıxmayıb, buna görə də orada mülki itkilər var".

"Milli Müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko, Bərdəyə hücum barədə "Vzglyad" qəzetinə verdiyi açıqlamada, "Şəhərlərə raket zərbələrinin müasir müharibə qaydalarına və Cenevrə Konvensiyasına zidd olduğu məlumdur"- dedi. "Təmas xəttində hərbi əməliyyatlar olduqda və mülki əhali əziyyət çəkdikdə, bunu başa düşmək olar, çünki hərbi və mülki hədəfləri dəqiq ayırd etmək həmişə mümkün olmur. Ancaq cəbhədən uzaqdakı şəhərlərə qarşı uzun mənzilli çoxsaylı raket sistemləri ilə zərbələr edildikdə, bunun əsaslandırılması sadəcə mümkün deyil. Bu beynəlxalq cinayətdir"

Ermənistanın hərbi-siyasi rəhbərliyinin nüfuzuna nə qədər böyük ziyan dəyəcəksə, Korotçenko mühakimə etməyi öz üzərinə götürmür. "Bunun səbəbi Ermənistanın onlarla mülki insanın ölümünə səbəb olan raket zərbələridir. Ancaq döyüş meydanında kimin qalib gəlməsi daha vacibdir. İndiyə qədər Azərbaycan qalib gəlir ". BMT Uşaq Fondu (UNICEF) Qarabağdakı döyüşlərin başlamasından bəri artıq 12 uşağın öldüyünü bildirdi. Bu kədərli siyahıda yer alan alların böyük əksəriyyətinin azərbaycanlı olması diqqət çəkir. Bu arada Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev Bakıda akkreditə olunmuş hərbi attaşeləri cümə axşamı Bərdəyə, "erməni terroru" nun nəticələrini şəxsən görmək üçün gəlməyə dəvət edib.

***Tərcümə etdi: Elçin Bayramlı***

## "Ermənistan nəinki danışıqlar, heç müharibə qanunlarını da nəzərə almır"



"Azərbaycan həm 30 illik danışıqlar prosesində, həm də son bir ayda aparılan əməliyyatlar dövründə Ermənistandan fərqli olaraq dünyada qəbul olunmuş prinsiplərə və qanunlara uyğun hərəkət etmişdir". Bunu SİA-ya Azərbaycan-Amerika Gəncləri İctimai Birliyinin sədri Vüqar Əhmədov deyib.

Onun sözlərinə görə, Prezidentin interfaks agentliyinə son müsahibəsinə nəzər salsaq, orada İlham Əliyev qeyd etmişdir ki, Ermənistanın əvvəlki rəhbərliyi ilə danışıqlar prosesində müəyyən nəticələr əldə olunmuşdur və tərəflər münaqişənin həllinə yaxınlaşmışdılar: "Nizamlanma prosesinə yaxın hakimiyyətə yeni gəlmiş Paşinyan bütün əldə olunanların üstündən xətt çəkərək prosesi elə bir çıxılmaz vəziyyətə gətirdi ki, Azərbaycanın hərbi yoldan başqa çıxış yolu qalmamışdır. Ermənistanın əvvəlki rəhbərlərindən heç kim Qarabağı Ermənistan adlandırmamış, oranın müstəqilliyinin tanınması məsələsini ortalığa atmamış və Azərbaycana müdafiə naziri timsalında yeni ərazi iddiaları ilə çıxış etməmişdir. Bu azmış kimi, hələ Paşinyan guya yeni formula icad edərək qondarma Dağlıq Qarabağı danışıqlara üçüncü tərəf kimi cəlb etmək istəyirdi. Hesab edirəm ki, Ermənistanın hazırki rəhbərliyinin nizamlanma ilə bağlı bu kimi qeyri-adekvat addımlarını görən ATƏT-in Minsk qrupu artıq bu dövlətə sanksiya tətbiq etməli idilər ki, vəziyyət bu həddə gəlib çatmasın və Ermənistan qansız-qadasız qoşunlarını Qarabağdan çəksin. Bu sanksiyalar üçün yetərincə hüquq baza mövcud idi. Azərbaycan torpaqlarının işğalı ilə bağlı dünyanın ən aparıcı beynəlxalq təşkilatlarının qətnamələri mövcuddur.

Lakin biz indi görürük ki, Ermənistan nəinki danışıqlar, heç müharibə qanunlarını da nəzərə almır və kobudcasına pozur. Hərbi əməliyyatlara Ermənistan tərəfdən yaşı tamam olmamış uşaqların cəlb edilməsi, hərbi əməliyyatlardan qat-qat uzaq olan Azərbaycan ərazilərinin və dinc əhalinin qadağan olunmuş silahlardan atəşə tutulması ən böyük müharibə cinayəti, beynəlxalq konvensiyaların pozulması və terror aktıdır. Bütün bunlara baxmayaraq Azərbaycan ATƏT-in təşəbbüsü ilə keçirilən son görüşlərin heç birindən imtina etməməklə, eyni zamanda hərbi əməliyyatlarda dinc insanları hədəfə almamaqla və erməni təxribatına uymamaqla böyük təmkin nümayiş etdirir, tutduğu yolda haqlı olduğunu bir daha sübut edir. Həmsədr ölkələr, beynəlxalq təşkilatlar bölgədə yaranan son vəziyyəti qiymətləndirərkən və bəyanatlar verərkən mütləq bu məqamları nəzərə almalı və nəhayət, işğalçı ilə işğala məruz qalan arasında fərqə soy qoymalıdırlar. Bunu etməklə onlar həm də Ermənistanı sülhə məcbur edə bilərlər".

# İnformasiya və təbliğat müharibəsinin qaydaları

**_Qarabağda anti-terror əməliyyatlarının başlaması ilə qlobal məkanında tərəflərin müharibəsi daha da şiddətlənib. Bəs hazırda vəziyyət necədir? Kəmiyyət və keyfiyyət cəhətdən kimin hansı üstünlüyü var?_**

### İnformasiya müharibəsində mövqelər

İnformasiya və təbliğat müharibəsində bəzi sahələrdə üstünlüyü ələ alsaq da, bəzilərində geri qalırıq. Ermənilər say cəhətdən bizdən 5 dəfə az olduqlarına baxmayaraq, bizdən daha çox və daha fəal iştirak edirlər və dünya xalqlarında ictimai fikri öz tərəflərinə çəkməyə çalışırlar. Bunun da əsas səbəbi ondan ibarətdir bizdə xarici dil bilənlər onlara nisbətən azdır. Hər bir erməni ən azı 1 və ya 2 xarici dili bilir.

Bundan əlavə, dünya ölkələrində ictimai, siyasi, mədəni, elmi mühitlərdə daha çox yer tutublar və bu nüfuzlarından maksimum istifadə edirlər.Əvvəllər biz qlobal informasiya məkanında ermənilərlə əsasən Qafqazın və Qarabağın tarixi, həmçinin ermənilərin törətdiyi sıyqırım, işğal və terrar faktları ilə bağlı mübarizə aparırdıqsa, indi buraya yaranmış situasiya ilə bağlı siyasi və hərbi informasiya müharibəsi də daxil olub.

Dövlət səviyyəsində dünya ictimaiyyətində erməni təbliğatına qarşı mübarizə effektiv və sanballı aparılır. Lakin informasiya müharibəsində təkcə dövlət yox, ictimai institutlar da, fərdlər də döyüşür, ona görə də, bu yazıda yalnız adi insanların sosial şəbəkələrdə, media materiallarına yazılan şərhlərlə, paylaşmalarla bağlı vəziyyətə, onların faydalılığı və ya zərərliliyi, effektivliyi və ya səmərəsizliyi ilə bağlı məsələlərə toxunmaq istəyirəm.

Müşahidələrim onu deməyə əsas verir ki, Feysbuk, Kontakt, Yutub və s. sosial şəbəkələrdə üstünlük əldə etmişik, bu həm paylaşılan materialların, yazılan şərhlərin sayında, həm də keyfiyyətində özünü biruzə verir. Sosial şəbəkələrin daha çox izlədiyim rusdilli seqmentində həm kəmiyyət, həm keyfiyyət cəhətdən üstünlük əldə etdiyimizi görürəm. Ümid edirəm ingilis dili və digər seqmentlərdə də belədir. Lakin bəzi məqamlar var ki, siyasi savadsızlıq və ya diqqətsizlik bu mübarizədə əks-effekt verir. Bununla bağlı çox faktlar göstərmək olar. Burada yalnız birini qeyd edəcəyəm ki, məsələ aydın olsun.

### 2 nəfər 200 nəfərin əməyini necə məhv edir?

Bir neçə gün əvvəl Kontakt sosial şəbəkəsində böyük bir auditoriyası olan rusdilli səhifədə müzakirələr gedir. Qarabağla bağlı paylaşılan xəbərə 7 mindən artıq şərh yazılıb. Müzakirədə əsasən MDB-dən olmaqla müxtəlif xalqların nümayəndələri iştirak edir. Səhifəyə daxil olanda görürəm ki, əsasən Azərbaycanda yaşayan və ya vaxtilə yaşamış ruslar, həmçinin bizim rus dilini bilən vətəndaşlarımız erməniləri hər cəhətdən sıxışdırıb, sanballı arqumentlər və təkzibedilməz faktlarla erməni yalanlarını bir-bir ifşa edir və müzakirədə iştirak edən minlərlə şəxsdə ölkəmizə, xalqımıza simpatiya formalaşdırır, ermənilərin isə vəhşi və terrorçu olduğunu sübut edirlər. Və bundan sonra erməni olmayan demək olar ki, hər kəs bizi dəstəkləyən şərhlər yazırlar. Əla! Bu ki, çox gözəldir. Amma...

Elə bu məqamda ortalıqda siyasi savadı, dünyagörüşü olmayan hay-küyçü iki azərbaycanlı peyda olur və yazır- ermənilərin hamısını qıracağıq arvad-uşaq demədən, Ermənistan da bizimdir, oranı da Azərbaycana birləşdirəcəyik və sair, və ilaxır...

Buyurun, bayaqdan yüzlərlə adamın xeyli vaxt sərf edərək ağır zəhmət hesabına apardığı mübarizənin içinə zibili qoydular. Artıq müxtəlif xalqları təmsil edən 7 mindən artıq insanda fikir formalaşmağa başlayır- azərbaycanlılar vəhşidirlər, əsil üzləri budur, yəqin ki o birilər artistlik edirlər, əslində hamısı belə düşünür...

Əvvəl şübhələndim ki, bunlar azərbaycanlı adi ilə üzv olan ermənilərdir. Belələrinə də az rast gəlinmir, amma konkret bu müzakirədəkiləri yoxladım- təmiz azərbaycanlıdırlar. Sadəcə savad, düşüncə, beyin yoxdur...

Əlbəttə, mən başa düşürəm ki, ermənilərin mülki şəxslərə, uşaqlara qarşı etdiyi terror aktları insanları qəzəbləndirir və onlar hisslərini cilovlaya bilmir. Amma siyasət və informasiya məkanı belə fikirlərin və belələrinin yeri deyil, ciddi, peşəkar və soyuqqanlı şəkildə iş aparan adamların yeridir.

Ermənilərin həlak etdiyi mülki vətəndaşlarımızın qisası çox ağır alınır, həm də döyüş meydanında. Burada isə məsələ başqadır, məqsəd başqadır, fəaliyyət istiqaməti başqadır. Bunları bilmirsənsə bu işdən aralı dur.

Ona görə də, hər kəs öz işi ilə məşğul olsa yaxşıdır. İnformasiya müharibəsini jurnalistlər, ictimai xadimlər, siyasətçilər, ziyalılar aparmalıdır. Qalanları öz sahələrində işləyib vətənə xeyir verə bilərlər. Burada isə zərər vururlar.

### Bu işdə peşəkar olmayanlar üçün bəzi məsləhətlər

**1.** Bəzi informasiyalar var ki, daxili auditoriya üçündür, bəziləri isə xarici auditoriya üçün. Bunu ayıra bilmirsinizsə, xarici seqmentdə nəsə paylaşmayın.

**2.** Bizim məqsədimiz başqa xalqarda Azərbaycana, azərbaycanlılara qarşı simpatiya formalaşdırmaq, həqiqətləri onlara çatdırmaqdır, erməniləri qırırıq və ya qıracağıq deməklə antipatiya qazanmaq yox.

**3.** Əsas fəaliyyət istiqaməti erməni terrorunu, işğalını və saxtakarlığını ifşa etməkdir. Bir də Paşinyanı sərt tənqid etmək və onun bizim üçün ən pis erməni prezident olmasını vurğulamaq. Bunları söyüşlə yox, mədəni, savadlı və sanballı şəkildə etmək lazımdır.

**4.** Bəzi məlumatlar var ki, dezinformasiyadır, onları xarici forumlarda ortaya atıb, doğrularımızı da yalan kimi qəbul etdirmək lazım deyil.



Bir yalan 10 doğrunu aparır.

**5.** Bu, xalqların müharibəsi deyil, orduların müharibəsidir. Yəni, bizim hədəfimiz erməniləri qırmaq deyil, Qarabağı işğaldan azad etməkdir. Biz Ermənistan ordusunun terrorçu dəstələrinə qarşı döyüşürük, onlar isə mülki şəxslərə qarşı terror edir.

**6.** Bu müharibə dini zəmində deyil, burada xristian və ya müsəlman kontekstində nəsə yazmaq zərərlidir. Əksinə, göstərmək lazımdır ki, biz multikultural ölkəyik, burada onlarla xalqın və dinin nümayəndələri uzun əsrlərdir ki, mehriban yaşayır.

**7.** Ermənilər dünyada təkləndiyindən bəzi dezinformasiyalar yaymaqla həm bizimlə qonşu ölkələrin arasını vurmağa çalışırlar, həm də xalqımızda qorxu yaratmağa çalışırlar. Bu tələyə düşmək olmaz. Bizim yeganə düşmənimiz Ermənistandır.

**8.** Xarici seqmentlərdə erməni əsgərlərinin meyitlərinin şəkillərini paylaşmaq əvəzinə (hərbçi də olsa insan ölümü digər insanlarda diskomfort yaradır və insan həmişə zəifin yanında olur), raket bombardmanı ilə öldürülmüş dinc vətəndaşlarımızın, uşaqların şəkillərini paylaşmaq lazımdır.

**9.** Tarixi mövzularda ancaq ciddi və xarici mənbələrə istinad etmək lazımdır, "bizim filan tarixçi belə yazır" əvəzinə, "filan rus, ingilis, fransız tarixçisi belə yazır" daha effektlidir. Deyiləni sübut edən həqiqi sənədlərin və xəritələrin paylaşılması da vacibdir.

**10.** Hər hansı bir xəbər, material, foto gördükdə onun mənşəyini tələb edin. Məsələn, bir foto paylaşılıb üstünə istənilən sözü yazmaq olar və bu xüsusi mərkəzlərin informasiya müharibəsi elementidir. Suriyada çəkilmiş fotonu yayıb ermənilər Xocalıda bizi belə qırıblar yazmaq xarici auditoriyada əvvəllər görülmüş bütün işi məhv etməyə bərabərdir.

**11.** Hərbi xarakterli məlumatları, videoları, fotoları rəsmi mənbələrdən paylaşın, rəsmi olmayanları da ciddi mənbələrdə olarsa paylaşa bilərsiniz. Şəhid xəbərlərini çox paylaşmaq indiki vaxtda məsləhət deyil, mülki şəxslərimizin öldürülməsini isə xarici seqmentdə paylaşın.

**12.** Siyasi, tarixi, demoqrafik və s. mövzularda infoqrafikalardan istifadə edin, qısa, aydın konkret yazın, rəsmi mənbələrdən və sənədlərdən, nüfuzlu alimlərin, siyasətçilərin fikirlərindən bəhrələnin.

**13.** Müqayisəli ifşaedici faktlar qoyun, məsələn, Azərbaycan ordusunun öldürdüyü erməni uşaq yoxdur, amma erməni ordusunun öldürdüyü xeyli azərbaycanlı uşaq var. Azərbaycanda onlarla xalqın nümayəndəsi yaşayır, Ermənistan isə monoetnik ölkədir. Azərbaycanda erməni kilsələri, qəbiristanlıqları belə durur, Ermənistanda isə bizə məxsus olan hər şey dağıdılıb və s.

**14.** Dağlıq Qarabağ adlı substansiya yoxdur, Qarabağ coğrafi regionu var, onun da dağlıq hissəsi və aran hissəsi var. Münaqişədən qabaq Qarabağ regionunun (indiki işğal edilmiş bütün ərazilərin) ümumi əhalisinin 75 faizdən çoxu azərbaycanlı olub.

**15.** Siyasi müzakirələrdə BMT qətnamələrinə istinad edin, erməni xalqının öz müqəddaratını artıq təyin etdiyini, sərhədlərin dəyişilməzliyi haqda beynəlxalq konvensiyanı xatırladın. Əks halda Ermənistandan qovulmuş 200 min azərbaycanlının da orada dövlət yaratma haqqının olduğunu ortaya qoyun.

**16.** Dünyaya göstərməliyik ki, biz sülh üçün 30 il çalışdıq, ən son imkanlardan istifadə etdik, ən böyük güzəştlərə hazır olduq, lakin Ermənistan hər dəfə danışıqları pozdu. Ona görə də, Azərbaycan BMT-nin qətnamələrini icraya yönəltdi və bununla həm dünya birliyinin dağılmasının, BMT-nin nüfuzunun tamam itməsinin qarşısını aldı, həm də başqa ölkələrə pis bir nümunə olacaq qonşu ölkənin ərazisini zor yolu ilə ələ keçirmək presidentini aradan qaldırdı.

### Müharibə həm də arxa cəbhədə udulur

Ümumiyyətlə, informasiya və təbliğat işi peşəkarlıq, yüksək savad və dünyagörüş tələb edir. Ən əsası da ağır zəhmət, səbr, böyük vaxt və enerji. Bu işlə məşğul olanların əməyini yerə vurmaq olmaz. Ona görə də, bu keyfiyyətlər sizdə varsa, və ya yuxarıda dediklərimizi edə biləcəksinizsə, enerjinizi, vaxtınızı daxildə bir-birinizə eyni məlumatları yazmağa yox, xarici seqmentlərdə mübarizəyə çatdırmağa sərf edin. Əgər bu qabiliyyətlər sizdə yoxdursa, dediklərimizi də edə bilməyəcəksinizsə, xarici auditoriyaya çıxmaq məsləhət deyil.

Ümumiyyətlə, nə qədər vacib olsa da informasiya müharibəsi ümumi işin ancaq bir istiqamətidir. Müxtəlif cəbhələrdə (siyasi, iqtisadi, təbliğat, kibermüharibə və s) mübarizə gedir, müxtəlif sahələrdə ümumi Qələbəyə töhfə vermək mümkündür. Bu gün arxa cəbhə ön cəbhənin dayağı olmalıdır. Böyük Vətən Müharibəsində qələbənin əldə edilməsində arxa cəbhənin nə qədər böyük paya malik olduğunu hamı bilir. Cəmi 1 şüar Qələbəni təmin etdi - Hər şey cəbhə üçün, hər şey qələbə üçün! Cəbiş müəllimlərin çox olduğu xalq və ölkə qalib gəlir.

Müharibəni təkcə dövlət, təkcə ordu aparmır, bütün xalq aparır. Bu gün biz xalq və dövlət olaraq heç vaxt olmadığımız qədər birik, birgəyik. Bu birliyimizi heç nə yıxa bilməyəcək. Xalqın birliyi dövlətin gücüdür və Qələbənin açarıdır.

**_Elçin Bayramlı_**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

30 oktyabr

Son səhifə

# Ronaldinyo Azərbaycana dəstək olub




Futbol üzrə Braziliya millisinin və İspaniyanın "Barselona" klubunun sabiq futbolçusu Ronaldinyo Azərbaycana dəstək olub. AZƏRTAC xəbər verir ki, məşhur futbolçu azərbaycanlılara salam göndərərək deyib: "Qoy hər kəs salamat evlərinə qayıtsın. Azərbaycanda mən çox gözəl qarşılandım və tezliklə ora qayıtmaq istəyirəm".

# Şəhidlər!





Vətən, torpaq müqəddəsdir, igidlər,
Qarabağda gedir ağır döyüşlər.
Tarixlərdən silinməzdir bu günlər
Məzarınız ziyarətdir, şəhidlər!

Qeyrət, namus rəmzidirlər analar
Mərd analar doğurlar nər oğullar.
Onlar bu gün düşmənlə vuruşurlar
Həlak olur, ünvanları şəhidlər!

Mübarizdir bizim qoçaq atalar
Düşmənləri silahsız da boğarlar.
Vəhşidirlər bu ermeni dığalar
Döyüşlərdə qurban gedir şəhidlər!

Torpaq ilə yoğrulmuşdu qanımız
Məhz ona da əmanətdir canımız.
Şərəflə yad olunar ad-sanınız
Cənnət adlı məkandasız şəhidlər!

Ali Baş Komandan verir qiyməti
Bütün dünya görür bu həqiqəti.
Zəfər bayrağının şan-şöhrətini
Qəhrəman tək ucaldırlar şəhidlər!

*Ofeliya Mürsəlqızı,*
*ADPU-nun sabiq müəllimi*

# "Barselona" "Yuventus"a, PSJ "Başakşəhər"ə qalib gəldi

Futbol üzrə UEFA Çempionlar Liqasında qrup mərhələsinin ikinci turuna yekun vurulub. SİA xəbər verir ki, sonuncu oyun günündə E, F, G və H qrupları üzrə 8 qarşılaşma baş tutub. Qardaş Türkiyənin çempionu "Başakşəhər" ÇL-də ilk ev oyununu




keçirib. Turnirə məğlubiyyətlə başlayan İstanbul təmsilçisi ötən mövsümün finalçısı PSJ-ni qəbul edib. Türkiyə təmsilçisi bu oyundan da xalsız ayrılıb. Bu qrupun digər görüşündə "Leypsiq" "Mançester Yunayted"in qonağı olub. "Qırmızı şeytanlar" darmadağına sevinibiər.

Turun ən maraqla gözlənilən matçı Turində keçirilib. Yarışa qələbə ilə başlayan "Yuventus" turnirin favoritlərindən olan "Barselona" ilə münasibətlərinə aydınlıq gətirib. Kataloniya təmsilçisi səfərdə inamlı qələbəyə sevinib.

# Mərci yüksək xolesterin və şəkəri sürətlə azaldır



***Mərci qanda yüksək xolesterin və şəkər səviyyəsini sürətlə azaldan ən yaxşı qarnirlərdən biridir. Mütəxəssislər, kartof püresi və ya bişmiş ağ düyü kimi məşhur qarnirlərin mərci ilə əvəz edilməsini məsləhət görürlər. "Natural News" portalında yazılan məlumatda deyilir ki, bu növ paxlalılar ürək-damar sisteminin vəziyyəti üçün daha faydalıdır - belə qarnirin sayəsində o xolesterinin və şəkərin artıqlarından daha səmərəli azad edilir.***

Mərcinin tərkibinə çox miqdarda fol turşusu, bitki zülalı, sellüloz daxildir - bu kompleks xolesterinin səviyyəsinin azalması proseslərini aktivləşdirir.

Bundan əlavə, mərcinin tərkibində zülal və lif çoxdur - bu, həzmi ləngidir və bununla birlikdə şəkərin sərbəst buraxılmasına mane olur. Bu qarnirin qəbul edilməsi qanda qlükozanı yüzdə 35-ə qədər endirə bilər. Qanda çox yüksək miqdarda şəkər və xolesterinin olması, 2-ci tip diabet, ateroskleroz, infarkt, insult inkişafı da daxil olmaqla təhlükəli nəticələrə gətirib çıxara bilər. Bununla belə, göstəricilər kritik dəyərlərə çatmayana qədər pozuntular heç bir şəkildə özünü göstərməyə bilər.

# Cüdo üzrə Avropa çempionatında iştirak edəcək yığmamızın heyəti açıqlanıb

***Çexiyanın paytaxtı Praqada təşkil olunacaq cüdo üzrə Avropa çempionatında iştirak edəcək Azərbaycan millisinin heyəti açıqlanıb.***

AZƏRTAC Beynəlxalq Cüdo Federasiyasının rəsmi saytına istinadla xəbər verir ki, yığmamız yarışda 16 cüdoçu ilə təmsil olunacaq. Belə ki, kişilər arasında Kəramət Hüseynov (60 kq), Nicat Şıxəlizadə (66 kq), Rüstəm Orucov (73 kq), Hidayət Heydərov, Murad Fətiyev (hər ikisi 81 kq), Məmmədəli Mehdiyev (90 kq), Elmar Qasımov, Zelim Kotsoyev (hər ikisi 100 kq) və Uşanqi Kokauri (+100 kq) mübarizə aparacaqlar.



Qadınların yarışında isə Leyla Əliyeva, Aişə Qurbanlı (hər ikisi 48 kq), Gültac Məmmədəliyeva (52 kq), Aleksandra-Larisa Florian, İçinkorloo Müntxsedev (hər ikisi 57 kq), Günel Həsənli (70 kq) və İrina Kindzerska (+78 kq) güclərini sınayacaqlar. Qeyd edək ki, Avropa çempionatı noyabrın 19-dən 21-dək keçiriləcək.

# Bakıda evdən 48 min manatlıq oğurluq olub

Yasamal rayonu ərazisindəki evlərin birindən oğurluq törətməkdə şübhəli bilinən digər şəxs - Abşeron rayon sakini R.Ələkbərov saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Baş Cinayət Axtarışı İdarəsi və Yasamal RPİ 27-ci PB əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisindəki evlərin birindən 800 manat, 10.000 ABŞ dolları və 30.000 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən digər şəxs - Abşeron rayon sakini, əvvəllər məhkum olunmuş R.Ələkbərov saxlanılıb.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**